Bu bir xalq qəzetidi
ƏDALƏT

## Hadrutda Poçt Agentliyi fəaliyyətə başladı



**Xocavənd rayonunun Hadrut qəsəbəsində Füzuli Poçt Filialının Müştəri Xidmətləri Şöbəsinin Poçt Agentliyi fəaliyyətə başlayıb.**

Adalet.az-ın məlumatına görə, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən işğaldan azad olunmuş bütün bölgələr üzrə telekommunikasiya infrastrukturunun bərpası istiqamətində hazırda şərait olan ərazilərdə müvafiq xidmətlər təşkil olunur, rabitə infrastrukturu qurulur, xidmətlər göstərilir. Minalardan təmizlənən ərazilərdə tələbata uyğun poçt xidmətləri qurulub. Hazırda Füzuli və Cəbrayıl Poçt filialları tərəfindən işğaldan azad olunan həmin istiqamətlərdəki ərazilər üzrə hərbi hissələrə ünvanlanan poçt göndərişlərinin təyinat üzrə çatdırılması təmin edilir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Azərpoçt" MMC tərəfindən Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli və Hadrutda 5 ədəd modul tipli poçt şöbəsinin açılması üzrə işlər görülür. Gələcəkdə bütün bölgələr üzrə tələbata uyğun xüsusi poçt rabitəsinin və poçt xidmətlərinin təşkili üçün yeni poçt marşrutlarının müəyyənləşdirilməsi ilə bağlı təkliflər hazırlanır.

Qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə işğaldan öncə 295 poçt şöbəsi fəaliyyət göstərib.

## *FHN koronavirusla bağlı modul xəstəxanası barədə yayılan şaiyələri təkzib etdi*



**Fövqəladə Hallar Nazirliyi qurumun Zığ qəsəbəsindəki modul tipli xəstəxanasında uşaqlar üçün xüsusi çarpayılar hazırlanması barədə yayılan məlumatlara münasibət bildirib.**

Nazirliyin Mətbuat xidmətindən Adalet.az-a verilən məlumatda bildirilir ki. son günlər bəzi sosial şəbəkə səhifələrində Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin Bakı şəhərinin Zığ qəsəbəsində yerləşən koronaviruslu (COVID-19) xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalında koronavirus infeksiyasına yoluxmuş uşaqlar üçün xüsusi çarpayıların yerləşdirilməsi barədə həqiqətə uyğun olmayan məlumatlar yayılır:

"Fövqəladə Hallar Nazirliyi olaraq bu məlumatları qəti şəkildə təkzib edir və kütləvi informasiya vasitələri və sosial şəbəkə istifadəçilərinə bir daha müraciət edərək rəsmi olmayan, dəqiqləşdirilməmiş məlumatları yaymamağa çağırır, ictimaiyyətdən isə yalnız rəsmi məlumatlara etibar etməyi xahiş edirik".

## *Konstitusiya Məhkəməsinə yeni hakim təyin olunub*

***Bununla bağlı məsələ Milli Məclisində müzakirə edilib. Belə ki, Humay Elçin qızı Əfəndiyevanın Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinə namizədliyi irəli sürülüb. Təklif səsə qoyularaq qəbul edilib.***

## Daxili Qoşunların zabitinin özünü öldürməsilə bağlı cinayət işi başlandı



**30 yanvar 2021-ci il tarixdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının N saylı hərbi hissəsinin hərbi qulluqçusu, kapitan Məmmədov Alim Nazim oğlunun həmin gün odlu silahdan atəş açmaqla özünü öldürməsi barədə Sumqayıt hərbi prokurorluğuna məlumat daxil olub.**

Hərbi Prokurorluğun Mətbuat Xidmətindən Adalet.az-a verilən məlumatda bildirilir ki, daxil olmuş məlumat əsasında Sumqayıt hərbi prokurorluğunun əməkdaşları tərəfindən dərhal hadisə yerinə və meyitə baxış keçirilmiş, iş üçün əhəmiyyət kəsb edən predmetlər maddi sübut kimi götürülmüş, izahatlar alınmış və digər hərəkətlər icra edilib.

Fakt üzrə Sumqayıt hərbi prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanılaraq şahidlər dindirilmiş, müvafiq ekspertizalar təyin edilmiş və təxirəsalınmaz zəruri istintaq hərəkətləri həyata keçirilib.

**Hazırda istintaq davam etdirilir və qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi təmin ediləcəkdir.**

## GÖRƏN, TAHİR KƏRİMLİNİN SÖZÜNÜ YERƏ SALARLAR?!



**Millət vəkili, dostumuz Tahir Kərimli Parlamentin iclasında Tarif Şurasını Azərbaycanın başı üstündə dolanan bir kabus adlandırdı. Və təklif etdi ki, Tarif Şurası ləğv edilsin.**

**Tarif Şurası ləğv olunsa nağayracuğaaa?**

## SULTAN MƏRZİLİ FAMİLİYASINI DƏYİŞMƏK İSTƏYİR



**Moskovda yaşayan məşhur şair Sultan Mərzili Ağdam rayonunun Xudu Məmmədovun doğulduğu kənddə, yəni Mərzilidə doğulub.**

İndi Türkiyə-Rusiya monitorinq qrupu da iqamətgahını həmin kənddə salıb. Şair də belə qərara gəlib ki, imzasını dəyişsin, indən belə Sultan Monitorinqzadə eləsin.

Eləmə, şair, bu monitorinq gəldi-gedərdi, amma Mərzili əbədidi.

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 12 (5844) 2 fevral 2021-ci il | Qiyməti 30 qəpik

## TUTUB ALANDA BİLMİRDİN SƏNİN DƏ ƏLİNDƏN TUTUB ALARLAR?



**Allı-güllü paytaxtımızda ”Baku Steel” company adlı bir şirkət var. Adları yadımdan çıxıb vaxtilə bu şirkəti iki qardaş işlədirdi. Sonra yüksək vəzifəlilər şirkəti onların əlindən tutub aldı və verdilər Rasim Məmmədova. Qardaşlar hansı məhkəməyə üz tutdu, Femidanın gözlərini aça bilmədilər.**

İndi də həmin şirkəti nəinki Rasim Məmmədovun əlindən tutub aldılar, hətta özünü də həbs elədilər.

Həqiqət var ey, amma Bəhlul Danəndə demiş, adamın ağzından köpük gəlir.

# Ölkə başçısı sosial obyektlərin açılışını etdi



Bax:səh-2

## ABŞ-ın ÇİÇƏYİ BURNUNDA OLAN PREZİDENTİ



***Co Bayden PKK-YPG-yə çox yox, elə-belə, cəmi 250 tır silah-sursat göndərdi.***

***Keçmişdə paltar biçdidə nə deyirdilər, hə, yadıma düşdü, oğluna-qızına borc olsun.***

## Çavuşoğlu: "Ermənistan səhvlərindən dərs çıxarmalıdır"

**Dağlıq Qarabağda 30 il ərzində zülm, işğal var idi. Diplomatiya yolu ilə həll edək deyildi, amma heç kim yanaşmadı. Nə səbəbə? Çünki Ermənistanı dəstəkləyirdilər.**



Adalet..az xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib. "Nə oldu? Qardaş can Azərbaycan meydana endi və haqqı olanı aldı, torpaqlarını işğaldan azad etdi. İndi də diplomatiya deyirlər. Bəli, orada da varıq. Cənubi Qafqazda sabitlik üçün 3+3 formatında ikili, üçlü görüşmələr başlayıb, atəşkəsə nəzarət edirik. Ermənistan bu səhvlərindən dərs çıxarıb, adam kimi davransa, ən çox qazanan bu ölkə və xalqı olacaq", - deyə XİN rəhbəri vurğulayıb.

*Məmməd Araz*

## BU MİLLƏTƏ NƏ VERDİK Kİ?



**Bu millətə nə verdik ki?
Kimsə qapdı ziyasını,
Kimsə pozdu sırasını,
Duzla yuduq yarasını,
Xörəyinə duz vermədik.
Bu millətə nə verdik ki?
İnamını noxtaladıq,
İnadını axtaladıq,
Var-yoxunu qarmaladıq,
Bir çeynəm saqqız vermədik.
Bu millətə nə verdik ki?
Halal tikə qənddi, - dedik,
Yoxsuluna dərdli, - dedik,
Kasıbına mərddi, - dedik,
Mərd kasıba qız vermədik.
Bu millətə nə verdik ki?
Çiyninə mindik, - öyrəşdi,
Bir dillə min dil öyrətdik,
Neçə fəndi-fel öyrətdik,
Milyon aldıq, yüz vermədik.
Bu millətə nə verdik ki?
Biz səhv etdik, batdı qana
Millət ata, millət ana,
İllacı qalsın bir yana,
Dərdi də ucuz vermədik.
Bu millətə nə verdik ki?
Bu millətin səbri böyük,
Dözür: dözüm həddinəcən,
Dözür: dözüm səddinəcən,
Dözür: dözüm xəttinəcən...
Sonra... daha sonra olmur,
Sonra qara tufan olur,
Sonra ”qullar dünyasının
İntiqamı yaman olur”...**

**16 noyabr 1992**

*Mehman CAVADOĞLU*

## Böyük yolun başlanğıcı



**Yanvarın 30-da işğaldan azad olunmuş Ağdam rayonunda Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi fəaliyyətə başlayıb. 10 noyabrda qəbul olunmuş üçtərəfli bəyanatda atəşkəsə nəzarət üçün belə bir sülhməramlı mərkəzin yaradlacağı öz əksini tapsa da, onun mexanizmi və formatı haqqında konkret bir söz deyilmirdi. Sənəddə sadəcə olaraq göstərilirdi ki, ”münaqişə tərəfləri tərəfindən razılaşmanın həyata keçirilməsinə nəzarətin effektivliyini artırmaq üçün atəşkəsə nəzarət etmək məqsədi ilə sülhməramlı mərkəz yerləşdirilir”.**

**Bax: səh.2**

## *Müharibədə hər iki gözünü itirən qazi kimdən şikayət edir?*

*"Mən Beyləqan sakini Allahvediyev Vasif Bayram oğlu, Xırdalanda kirayədə yaşayıram. Əvvəllər Binəqədi rayonunda kirayə evdə qalırdım. İkinci Qarabağ müharibəsi zamanı Füzulidə döyüş-*




*müşəm, döyüş zamanı hər iki gözümü itirmişəm. Xəstəxanadan buraxıldıqdan sonra Binəqədi rayon icra hakimiyyətinə getdim ki, icra başçısı ilə görüşüm, ev problemini həll etməyə çalışım. Nəinki icra başçısı, saatlarla gözləməyimə baxmayaraq heç onun müavini də məni qəbul etmədi, dinləmədi. Şərt deyildi mənə ev versinlər, heç olmasa qanacaqları çatıb, qəbul edib dərdimi dinləyərdilər".*

*Bakupost.az*

*Fazil Mustafa*

## URVATSIZLAŞDIRILAN QƏLƏBƏ

Bax:səh-3

## Vaqif Qarayev: Məktəblərin açılması pandemiyaya necə təsir edəcək?



**Yenə ciddi narahatlıq var valideynlər arasında... səs yazısı yayılıb... "Ağıllı" birisi uşaqlar arasında Covid-19-la bağlı həyəcan təbili çalır... Guya xüsusi şöbələr yaradılıb uşaqlar üçün (mənə belə deyirlər). Növbəti dalğa ancaq uşaqları tutacaq filan...**

Kim deyir bunu? Ciddi bir mənbəniz varmı? Uşaqlar arasında statistika bu günə pis deyil. Həm yoluxma, həm ölüm baxımından. Yəni həyəcan doğurmur!

Məktəblərin açılması pandemiyaya necə təsir edəcək? Bunu heç kim bilmir. Ona görə əvvəlcədən insanlar arasında panika yaratmaq düzgün deyil!

## Sürücülərə şad xəbər

**Azərbaycanda dayanma və ya durma qaydalarının pozulmasına görə gün ərzində təkrar cərimə ləğv edilir.**

Adalet.az-ın məlumatına görə, bununla bağlı məsələ Milli Məclisin yaz sessiyasının bu gün keçirilən iclasında müzakirəyə çıxarılan İnzibati Xətalar Məcəlləsinə dəyişiklikdə əksini tapıb.

Dəyişikliyə əsasən, məcəlləyə yeni qeyd əlavə edilir. Həmin qeydə əsasən, şəxs bu Məcəllənin 346-cı maddəsində nəzərdə tutulmuş eyni inzibati xətanın törədilməsinə görə gün ərzində təkrar inzibati məsuliyyətə cəlb oluna bilməz.

346-cı maddə Dayanma və ya durma qaydalarının pozulmasını əks etdirir və buna görə iyirmi manat məbləğində cərimə nəzərdə tutulur.

**Dəyişiklik müzakirələrdən sonra səsverməyə qoyularaq birinci oxunuşda qəbul edilib.**

## Vüsal Oğuzdan maraqlı status



**Yaxşı oldu suyun qiyməti qalxdı. Daha pivəyə su da qatmazlar.**

## GÜNÜN LƏTİFƏSİ

Dəlixanada iki dəli eyni otaqda qalırlar. Səhəri gün dəlilərdən biri gözətçiyə deyir:

**- Mənim yanımda qalan dəli məni yatmağa qoymur.**

- Niyə?

**- Başına vedrə keçirib əlini divardakı deşiyə soxub deyir ki, mən lampayam.**

- Burda problem nədir ki?

**- Elə eləyəndə yata bilmirəm, gözümə işıq düşür axı...**

# Ölkə başçısı sosial obyektlərin açılışını etdi



**Fevralın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Abşeron rayonunda bir sıra sosial obyektlərin, həmçinin paytaxtın Yasamal rayonunda yeni salınan meşə tipli parkın açılışında iştirak ediblər.**

Dövlətimizin başçısı və birinci vitse-prezident ulu öndər Heydər Əliyevin Xırdalan şəhərindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən qurulan 220/110/10 kilovoltluq və yeni tikilən 110/35/10 kilovoltluq "Xırdalan" yarımstansiyalarının açılışında iştirak edib.**

Dövlətimizin başçısı "Xırdalan" yarımstansiyasında yaradılan şəraitlə tanış olub.

Məlumat verildi ki, 220/110/10 kilovoltluq "Xırdalan" yarımstansiyası istismar müddətini başa vurduğuna və artan tələbatı qarşılaya bilmədiyinə görə tam yenidən qurulub.

Bakı şəhərinin dairəvi elektrik təchizatı üzrə 60 faizini elektrik enerjisi ilə qidalandıran bu yarımstansiyaya Şirvan şəhərindəki "Cənub" Elektrik Stansiyasından 108 kilometr məsafədə elektrik ötürmə xətti çəkilib. Bu, Mingəçevir şəhərindəki generasiya mənbələrindən asılılığı azaltmağa xidmət etməklə yanaşı, paytaxtın etibarlı və dayanıqlı enerji ilə təmin edilməsində əvəzsiz rol oynayır.

Sonra Prezident İlham Əliyev məsafədən idarəolunan SCADA Dispetçer sistemi vasitəsilə yeni tikilən 110/35/10 kilovoltluq "Xırdalan" yarımstansiyasını işə salıb.

Bildirildi ki, qəzaların qarşısının alınması və istehlakçıların keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsində bu stansiya mühüm əhəmiyyətə malikdir.

Dövlətimizin başçısına yeni SCADA layihəsinin birinci mərhələsinin başa çatması barədə də məlumat verilib.

Qeyd edildi ki, yarımstansiyanın yeni inzibati binasında SCADA idarəetmə sisteminin tam həcmdə ehtiyat dispetçer idarəetmə mərkəzi yaradılıb.

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva fevralın 1-də Abşeron rayonunun Xırdalan şəhərində 3 saylı məktəb-liseydə yaradılan şəraitlə tanış olublar.**

Dövlətimizin başçısının 2019-cu ilin yanvarında imzaladığı Sərəncamla bu təhsil müəssisəsinin 1176 şagird yerlik korpusu əsaslı təmir olunub və 1200 şagird yerlik yeni əlavə korpus inşa edilib. Yeni tikilən korpusda müasir sinif otaqları, informatika, hərbi hazırlıq, əmək təlimi, məktəbəqədər hazırlıq kabinetləri yaradılıb və zəruri dərs vəsaiti ilə təchiz olunub. Burada, həmçinin STEAM - elm, texnologiya, mühəndislik, incəsənət, riyaziyyat otağı, laboratoriyalar, akt zalı və açıq idman meydançası yaradılıb.

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva fevralın 1-də Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılışında iştirak ediblər.**

Dövlətimizin başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva xəstəxanada yaradılan şəraitlə tanış olublar. Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə tikilən 150 çarpayılıq tibb müəssisəsi ən zəruri avadanlıqla təchiz olunub. Burada dünyanın aparıcı şirkətlərinin avadanlığı quraşdırılıb. Xəstəxanada cərrahiyyə, terapiya, pediatriya, reanimasiya, dializ və digər şöbələr, həmçinin laboratoriyalar fəaliyyət göstərəcək. Bu binaya Abşeron Rayon Mərkəzi Xəstəxanasının nəzdində olan mərkəzi xəstəxana, Abşeron rayon poliklinikası, Abşeron rayon uşaq poliklinikası və təcili və təxirəsalınmaz tibbi yardım şöbəsinin köçürülməsi nəzərdə tutulub. Yeni tibb müəssisəsində yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib.

## *Aqil Abbas: "Tarif Şurası da sağ olsun, suyun qiymətini qaldırdı, sevindik"*



**"Hamı deyir ki, Azərbaycanda filmlər çəkilməlidir. Prezident İlham Əliyev hər il filmlərin çəkilməsi üçün pul ayırır. Pul ayrılıb kinostudiyanın hesabına köçürülən kimi "vergilər" 18 faizini götürür".**

Bunu Milli Məclisin deputatı Aqil Abbas parlamentin plenar iclasında deyib. Deputat təklif edib ki, filmlərin çəkilməsinə görə də vergilər ləğv edilsin: "Xahiş edirəm bu məsələlər burada qalmasın. Tarif Şurası da sağ olsun, suyun qiymətini qaldırdı, sevindik".

## *Sahibə Qafarova: "Bu torpaqlarda əbədi olaraq yaşayacağıq"*

**Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş siyasəti və müdrikliyi Azərbaycanı qələbədən qələbəyə aparır. Bunu Milli Məclisin sədri Sahibə Qafarova dünən keçirilən Milli Məclisin 2021-ci il yaz sessiyasının ilk plenar iclasında deyib.**



S.Qafarova bildirib ki, Azərbaycan xalqı 2020-ci ili uğurla başa vurub və 2021-ci ilə böyük uğur və ümidlərlə daxil olub.

Spiker vurğulayıb ki, 2020-ci ildə müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Azərbaycan ordusu işğal altında olan torpaqlarımızı azad etdi:

"Döyüş meydanında əldə olunan qələbə siyasi müstəvidə də təsdiq edilib və Dağlıq Qarabağ münaqişəsi tarixdə qalıb. Biz doğma torpaqlarımıza, Qarabağa, Qarabağın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi olaraq yaşayacağıq".

## *İctimai Televiziyada "Parlament Saatı"*

**İctimai televiziyada "parlament saatı" adlı veriliş olacaq. Bu haqda Sahibə Qafarova məlumat verib .**

S.Qafarova bildirib ki, bununla bağlı razılaşma əldə olunub və yaxın zamanlarda İctimai Televiziyada həftədə bir dəfə "parlament saatı" adlı veriliş fəaliyyətə başlayacaq.

S.Qafarova həmçinin bildirib ki, Milli Məclisn internet saytı da yeni dizaynda fəaliyyətə başlayıb.

## *Milli Məclisə yeni şöbə müdiri təyin edilib*

**Milli Məclisin Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri işdən çıxarılıb. Bununla bağlı Milli Məclisin sədri Sahibə Qafarova müvafiq əmr imzalayıb. Əmrə əsasən, İlqar Fərzəliyev vəzifəsindən azad edilərək təqaüdə göndərilib.**

S.Qafarovanın digər əmri ilə isə Fərid Famil oğlu Hacıyev həmin şöbəyə müdir təyin edilib.

## *Parlamentin yaz sessiyasının işlər planı təsdiqləndi*

**Parlamentin dünən keçirilən plenar iclasında Milli Məclisin 2021-ci il yaz sessiyasının qanunvericilik işlər planı müzakirə edilib. Qanunvericilik işləri planına daxil edilən qanun layihələri aşağıdakılardır:**



**1.** Azərbaycan Respublikası Prezidenti-nin, Azərbaycan Respublikası Milli Məclisi deputatlarının, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Baş Prokurorluğunun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun layihələri;

**2.** Azərbaycan Respublikasının Milli Məclisi İntizam Komissiyasının Əsasnaməsinin təsdiq edilməsi haqqında qərar layihəsi;

**3.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Xüsusi hissəsinin "Sülh və insanlıq əleyhinə cinayətlər" bölməsinin yeni redaksiyasının layihəsi;

**4.** "Hərbi qulluqçuların statusu haqqında" qanun layihəsi;

**5.** "Qiymətləndirmə fəaliyyəti haqqında" qanun layihəsi;

**6.** "Lombardlar haqqında" qanun layihəsi;

**7.** "Reproduktiv sağlamlıq haqqında" qanun layihəsi;

**8.** "Ali təhsil haqqında" qanun layihəsi;.

**9.** "Təhsil kreditləri haqqında" qanun layihəsi;

**10.** "Turizm haqqında" qanun layihəsi;.

**11.** "Qeyri-maddi mədəni irsin qorunması haqqında" qanun layihəsi;

**12.** "Qida təhlükəsizliyi haqqında" qanun layihəsi;

**13.** Azərbaycan Respublikasının qanun-larında dəyişikliklər edilməsi haqqında qanun layihələri.

Müzakirələrdən sonra Milli Məclisin 2021-ci il yaz sessiyasının qanunvericilik işlər planı səsverməyə çıxarılaraq təsdiqlənib.

## *Əli Məsimli: "Şəhidlərin oxuduğu məktəblərə onların adları verilməlidir"*



**"Bizə şəhidlərin oxuduğu məktəbə onların adlarının verilməsi ilə bağlı müraciətlər daxil olur. Təklif edirəm ki, küçələrə adlar verilən zaman şəhidlərin adlarına üstünlük verilsin". Bunu Milli Məclisin deputatı Əli Məsimli parlamentdə səsələndirib. Həmçinin deputat bildirib ki, "Qanunvericiliyi şəhid ailələrinin xeyrinə dəyişmək daha yaxşı olar".**

## *"Azərbaycanın diplomatik nümayəndələrinə qarşı hücumlar başlayıb"*

**"Artıq erməni təxribatı işə düşüb. Biz ona görə daha diqqətli olmalıyıq. Artıq Azərbaycanın diplomatik nümayəndələrinə qarşı hücumlar başlayıb. Səfirlər, diplomatik nümayəndələr hədələnir". Bu fikirləri Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov parlament tribunasından səsləndirib.**

Deputat qeyd edib ki, bu səbəbdən səfirliklərimizin mühafizəsinə diqqət artırılmalıdır: "Vaxtilə Türkiyəyə qarşı da belə addımlar atılmışdı. Xaricdə oturub erməni pulu alan sapı özümüzdən olan baltalar təxribat dolu çıxışlar edirlər. Bu məsələdə deputatlar fəal olmalıdır. Həmçinin biz səfirliklərimizin daha ciddi qorunması üçün müraciət etməliyik".

## *Tahir Kərimli: "Təcili olaraq Tarif Şurasını ləğv etməliyik"*

**"Azərbaycanın başının üstündə bir kabus əmələ gəlib, o da Tarif Şurasıdır. Heç kim bilmir ki, orada kimlər var".**

Bunu Milli Məclisin deputatı Tahir Kərimli parlamentin plenar iclasında bildirib. Deputat çıxışına davam edərək bildirib ki, "Bir də gördün qiyməti qaldırdılar. Heç kim də camaatın qabağına çıxmır. Bütün işlər qalıb deputatın üstündə. Tarif Şurası hansı hüquqla insanların rifahının yaxşılaşdırılmasını pozur? Mənə elə gəlir ki, təcili olaraq Tarif Şurasını ləğv etməliyik. Biz heç bilmirik ki, nə vaxt bahalaşma olacaq. Prezidentin gördüyü işə bu qədər kölgə salmaq lazım deyildi ".

**Nicat Novruzoğlu**

## Medvedyev Navalnını təhqir etdi

**Aleksey Navalnı siyasi yaramazdır. Bunu Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedyev deyib. O, Navalnının avantüra yolu ilə öz hədəflərinə çatmaq istədiyini bildirib:**



**"Mən Navalnı və ya vətəndaş Navalnı barədə nə düşünürəm? Onu deyə bilərəm ki, əvvəlki kimi Navalnını siyasi yaramaz sayıram".**

## Bayden aktivləşir: Hədəfdə İrəvan da var




**ABŞ Prezidenti Cozef Bayden post-sovet ölkələrini Rusiyadan qoparmaq üçün səylərini aktivləşdirir.**

**Bunu rusiyalı senator Aleksey Puşkov deyib. Onun sözlərinə görə, Vaşinqtonun diqqət mərkəzinə, xüsusilə, Belarus, Özbəkistan, Ermənistan və Qazaxıstan düşəcək: "Bu, qarşımıza müttəfiqlərimiz olan ölkələrdə öz təsirimizin saxlanılması üçün yeni hədəflər qoyur". Puşkov Vaşinqtonun Kiyevlə hərbi tərəfdaşlığı gücləndirəcəyini bildirib. Senatorun fikrincə, Ukrayna ərazisində Amerikanın hərbi dəniz bazaları peyda olacaq. ABŞ-ın Ukraynaya hücum silahları verəcəyini iddia edən Puşkov Vaşinqtonun Kiyevi aktiv şəkildə Qərb hərbi strukturlarına inteqrasiya edərək, NATO-nun qeyri-rəsmi üzvünə çevirəcəyini bildirib.**

## Yaponiya bu ölkə ilə savaşa hazırlaşır



**Çin sahil təhlükəsizliyi qüvvələrinə ölkənin suverenliyinə təhdid törədən istənilən ünsürün məhv edilməsi ilə bağlı əmr verdikdən sonra Yaponiya həyəcan təbili çalıb. Bu barədə "Japan Tayms" məlumat yayıb.**

**Bildirilib ki, Yaponiya Xarici İşlər Nazirliyinin adı açıqlanmayan rəsmisi Çinin bu qərarının beynəlxalq hüquqa zidd olduğunu açıqlayıb. Xəbərdə rəsmi Tokionun Pekinlə Şərqi Çin dənizində baş verəcək istənilən hərbi qarşıdurmaya hazırlaşdığı qeyd edilib.**

**MEHRİBAN**

*Mehman Cavadoğlu*

# Böyük yolun başlanğıcı

**Yanvarın 30-da işğaldan azad olunmuş Ağdam rayonunda Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi fəaliyyətə başlayıb. 10 noyabrda qəbul olunmuş üçtərəfli bəyanatda atəşkəsə nəzarət üçün belə bir sülhməramlı mərkəzin yaradlacağı öz əksini tapsa da, onun mexanizmi və formatı haqqında konkret bir söz deyilmirdi. Sənəddə sadəcə olaraq göstərilirdi ki, "münaqişə tərəfləri tərəfindən razılaşmanın həyata keçirilməsinə nəzarətin effektivliyini artırmaq üçün atəşkəsə nəzarət etmək məqsədi ilə sülhməramlı mərkəz yerləşdirilir".**

Sonradan bunun türklərlə rusların yaradacağı ortaq bir mərkəz olacağı hər iki ölkənin ən yüksək səviyyəli rəsmiləri tərəfindən açıqlansa da, əvvəl-əvvəl iş düyünə düşmüş kimi görünürdü. Mərkəzin "gələn həftə", "ayın əvvəlində", "ayın sonunda" fəaliyyətə başlayacağı haqqında KİV-ləri başına götürmüş anonslara rəğmən məsələ acı bağırsaq kimi uzandığına görə bağlı qapılar arxasında çox ağır danışıqların getdiyini təxmin eləmək çətin deyildi. Çünki söhbət sıradan bir müşahidə məntəsindən yox, böyük geopolitik hadisədən, bir NATO dövlətinin bölgəyə rəsmi girişindən gedirdi. Bu məhz geosiyasi amilə görə elə həssas bir məqamdır ki, artıq hərbi kontingentin sayının məhdudluğu da, missiyasının humanitarlığı da onun mahiyyətini kiçiltmək gücündə deyildi.

Özünü bütün rus çarları və imperatorlarının, kommunist liderlərinin, bir sözlə, onu bilavasitə Rusiya dövlətinin başında oturtmuş Yeltsindən başqa az qala, hamının varisi sayan V. Putinin 2007-ci ildə söylədiyi məşhur Münhen nitqiylə dünyanı faktiki olaraq yenidən soyuq müharibə dövrünə qaytarmasının başlıca səbəbi də elə bu NATO, daha dəqiq desək, onun durmadan Şərqə doğru genişləndirilməsi amiliydi. İndisə NATO Şərqə doğru onun öz razılığı və imzasıyla genişlənirdi.

Doğrudur, bu, Rusiyanın Türkiyə ilə ilk sıx hərbi əməkdaşlıq formatı deyildi. Təbii ki, söhbət S-400 "Triumf" zenit-raket sisremlərinin alqı-satqısı kimi NATO-nun kuluarlarında böyük səs-küy doğuran bir layihənin gerçəkləşdirilməsindən yox, Suriya ilə bu gün də davam eləyən birgə müşahidə missiyasının qurulmasından gedir. Amma Putin Suruyanı Rusiyanın sovetdən qalma "halal müstəmləkəsi" saysa da, onu Cənubi Qafqaz qədər "özününkü" hesab eləmir. Xatırladaq ki, 2008-ci ilin avqustunda Rusiya ilə Gürcüstan arasında baş vermiş və faktiki olaraq Cənubi Osetiya ilə Abxaziyanın öz müstəqilliklərini elan eləməsiylə (oxu: Rusiyanın tərkibinə keçməsiylə) başa çatan "beş günlük müharibə" də rəsmi Tiflisin vaxtsız NATO ritorikası ucbatındandan baş vermişdi. Şimali Atlantika alyansına üzv olmaqla bağlı parlamentin yekdilliklə çıxardığı qərardan sonra keçirilən referendumda əhalinin də 77 faizinin buna səs verməsi Kremlin səbr kasasını daşdırmışdı. Hərçənd, NATO-nun təsəvvür edildiyindən xeyli astagəl qurum olması, onun bu cür impulsiv və vaxtsız qərarlarla genişlənmədiyi heç kimə sirr deyildi.

Təbii ki, bu gün Türkiyə Azərbaycana NATO üzvü kimi və yaxud qurumun hər hansı gizli-açıq xeyir-duasıyla yox, Rusiya ilə anlaşma çərçivəsində gəlib. Onun bu gəlişindən bəlkə də ən çox narahat olan elə alyansın özü, xüsusilə onun aparıcı ölkələridi. Üstəlik, qardaş ölkənin heç həmin qurumun daxilində də işləri rəvan getmir, hər fürsətdə dışlanır, sıxma-boğmaya salınır, hətta məsələ müttəfiqlərinin sanksiyasına məruz qalmaq dərəcəsində absurda çatır. Bütün bunlara baxmayaraq bir NATO dövlətinin Azərbaycanda rəsmi missiya ilə hətta simvolik mövcudluğu belə 44 günlük müharibədə möhtəşəm bir qələbəyə imza atmış rəsmi Bakının həm də böyük diplomatik qələbəsidi.

Əslində, Rusiyanın özü də bu gəlişdən məmnun deyildi, onun sadəcə, məcburiyyət üzündən, artıq tam qələbənin beş addımlığında olan Azərbaycanı atəşkəsə razı salmaq üçün belə bir anlaşmaya getməsi daha ağlabatan versiya kimi görünür. Rus qoşunlarının atəşkəslə bağlı imzalanan üçtərəfli bəyanatın mürəkkəbi qurumamış, elə gecəykən münaqişə bölgəsinə daşınmasına rəğmən Monitorinq Mərkəzinin iki ay yarımdan sonra təşkil edilməsi də bu versiyanı xeyli gücləndirir. Mərkəz üçün yer axtarılması, tapılması, tikintisi, nə bilim, tərkibi, mandatı barədə müharibənin özündən uzun çəkən müzakirələr də göstərir ki, Kreml hər vəchlə məsələni gündəmdən çıxarmağa çalışırmış. Nə qədər ki, atəşkəs sazişinin imzalanması ərəfəsindəki gərgin günlərdə və saatlarda, eləcə də sonrakı mərhələdə gedən danışıqların üstünə çəkilmiş qalın sirr pərdəsi götürülməyib, bütün bunlar ehtimal olaraq qalacaq, uzun-uzadı vurnuxmaların dəqiq səbəblərini prosesin iştirakçılarından başqa heç kim bilməyəcək.

Türkiyənin Monitorinq Mərkəzində iştirakına nail olmağımız türk əsgərinin Azərbaycanda rəsmi mövcudluğu yuxarıda da söylədiyimiz kimi diplomatik qələbədi. Böyük yolun başlanğıcıdı. Bundan əlavə, hazırda münaqişə bölgəsində sülhü təmin edən ölkənin erməni sevdalı olması heç kimə sirr deyil. Bunu təkcə 30 ilin acı təcrübəsinə görə demirik, həmin ölkənin ən müxtəlif səviyyəli rəsmi şəxsləri elə indinin özündə də bunu hər addımbaşı nümayiş etdirməkdən, hətta açıq-aşkar dilə gətirməkdən belə çəkinmirlər. Mandatı və statusu Putindən başqa heç kimə, hətta missiyanın rəhbərinə də məlum olmayan sülhməramlılar da həmin abhavayla hərəkət eləyir, özlərini daha çox, hətta lazım olduğundan da qat-qat çox ermənilərin havadarları kimi aparırlar. Bir sözlə, türk əsgərləri olmasaydı Minsk qrupunun həmsədr ölkələri arasında təklənmiş duruma düşmüş Azərbaycan yenə də eyni aqibətlə üzləşəcəkdi.

Məlumdu ki, BMT- nin birmənalı mövqeyinə rəğmən həmsədr ölkələrin danışıqlar prosesindəki əsas məramı əsla münaqişənin beynəlxalq hüquq normalarına uyğun həlli deyildi. Kameralar qarşısında nə deyilməsindən asılı olmayaraq, məqsəd prosesi sonsuzluğa qədər uzadaraq Azərbaycanı təslimçiliyə sürükləmək və işğalı rəsmiləşdirmək idi. Müxtəlif sülh platformalarına qucaq-qucaq pul xərclənən pullar bu məqsədə xidmət edirdi. Ən qəribəsi sülh carçılarının öz arqumentlərini müharibə partiyasına xas çox sadə bir formulla əsaslandırırmalarıydı: "Siz müharibəni uduzduğunuz üçün reallıqla barışmalısınız". Bunu bərkdən deməsələr də, hər fürsətdə eyham vurmaqdan çəkinmirdilər.

İndi məlum olur ki, uzun illərdi bu mandat çərçivəsində aparılan danışıqların nəticəsində formalaşmış, təxminən bir-birinin təkrar eləyən, sadəcə, həmsədr ölkələrin daxili rəqabətinin nəticəsi olaraq fərqli epitetlərlə təqdim olunan və ayrı-ayrı detalları ütülü şəkildə mətbuata sızdırılan Madrid və ya Kazan prinsipləri təsəvvür edildiyindən də qat-qat biabırçı bir sənəd imiş. Bu günlərdə Rusiyanın keçmiş daxili işlər naziri, hazırda təhlükəsizlik şurasında Putinin müavini vəzifəsində çalışan Rəşid Nurqaliyev ermənilərin anti-rus həmlələrinə cavab olaraq həmin danışıqların indiyə qədər sirr kimi saxlanan ən xırda detallarını da açıqlayıb. Məlum olub ki, məsələ heç də ictimaiyyətə sırınan "beş rayon, sonra iki rayon, daha sonra referendum" kimi sadə formul ətrafında getmirmiş. Bütün detallara varmadan bircə onu deyək ki, həmin planda Azərbaycanın ərazi bütövlüyü, qaçqınların qayıdışı və s. məsələlərin heç adı çəkilmirmiş. Təsəvvür edin ki, ermənilər bu variantla da razılaşmırmış. Bəs, həmsədrlər bütün bunları bilə-bilə hətta ən məğlub durumda olduğu vaxtlarda belə bir qarış torpağını heç kimə güzəştə getməyəcəyini dəfələrlə bəyan eləmiş Azərbaycanı, artıq qalib Azərbaycanı indi hansı üzlə bu qədər destruktiv, həyasız mövqe sərgiləyən ermənilərlə yenidən danışıq masası arxasına qaytarmaq istəyirlər?

Mövzudan qismən yayınmağımızın əsas səbəbi odur ki, artıq "status" kimi Minsk qrupunun da tarixin arxivinə gömülmək vaxtı çatıb və növbəti mərhələdə prosesin ağırlıq mərkəzi heç şübhəsiz, bölgədə yaranmış yeni hərbi-siyasi reallıqların üzərinə köklənməlidi. Bu situasiyada isə müşahidə müssiyasında türk əsgərinin iştirakı ikiqat əhəmiyyət kəsb edir. Rusiyanın açıq tərəfkeşliyi şəraitində təkcə münaqişə tərəflərinin atəşkəsə necə əməl eləməsi yox, həm də atəşkəsin qarantı olan sülhməramlıların özlərini necə aparması məsələsi aktuallaşır ki, burda da türklərin əvəzsiz rolunun nədən ibarər olmasını söyləməyə ehtiyac qalmır.

**Azərbaycanın 44 günlük müharibədə qazandığı möhtəşəm qələbə bölgədə yeni əməkdaşlıq perspektivləri açdı. İstər 30 illik işğal dövründə, istərsə də son müharibənin gedişində ona qarşı çıxanlar, açıq düşmənçilik mövqeyində dayananlar, istərsə də gözləmə mövqeyi tutanlar erməni vandallarının xarabazarlığa çevirdikləri ərazilərdə açılan investisiya imkanlarından pay almaq, yeni geopolitik imkanlardan yararlanmaq üçün artıq bölgəyə axışmağa başlayıblar. Bir sözlə, hamı kabab iyinə gəlir. Qoy olsun. Bütün umu-küsülər geridə qalsın. Amma unutmayaq ki, bu investisiya piroqundan ən böyük pay heç şübhəsiz, ona ən çox haqqı çatan, müstəqillik illərinin bütün çətin anlarında daim qan qardaşlarının yanında duran, onun təmənnasız hayanı olan Türkiyəyə çatmalıdır.**

**Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev KİV-lərə müsahibəsində bildirib ki, ”Rusiyanı qlobal şəbəkələrdən ayırmaq istəyirlər. Lakin hakimiyyətin bununla bağlı müəyyən planları mövcuddur”.**




xuzmaq istəyirlər. Biz hətta belə bir halın yaranmasına görə öz sistemimizi yaratmaq məcburiyyətimdə qalmışdıq. Eyni zamanda internet şəbəkəsi bağlanarsa, onda bizim əsas şəbəkə xətlərinə girişimiz tamamilə bağlana bilər”.

Təhlükəsizlik Şurasının sədr müavini avtonom idarə olunması üçün, yarana biləcək risklər fonunda Rusiyanın internet seqmentində qanun qəbul etməsinin vacibliyini vurğulayıb:

”Hazırda dövlətin sosial funksiyası, bütün idarəetmə sistemi internetlə bağlı olduğu üçün, bu məsələni nəzarətsiz qoya bilmərik. Bizim belə bir qanunumuz var. Ona görə də ehtiyac yaranarsa bu qanun qüvvəyə minməlidir”.

Rusiya banklarının SWIFT sistemindən kənarlaşdırılması riskinin aradan qaldırılması məqsədi ilə, maliyyə sistemiin fəaliyyətində problemlər yaranmasının qarşısının alınması üçün analoji sistem artıq yaradılıb. Bu sistemə dünyanın 11 mindən çox iri təşkilatları qoşulub.

# ABŞ RUSİYANI İNTERNETSİZ QOYMAQ İSTƏYİR?!

”Məlum olduğu kimi internet müəyyən bir zamanda yaranıb və təbii ki, onun əsas idarəçiliyi Amerika Birləşmiş Ştatların nəzarətindədir. Əgər fövqaladə nəsə baş verərsə, kimlərinsə başına hava gələrsə, Rusiyanı beynəlxalq şəbəkədən ayıra bilərlər”- deyə Dmitri Anatolyeviç bəyan edib.

Medvedev müsahibəsində qeyd edb ki, artıq Rusiya SWİFT beynəlxalq hesablaşmalar sistemindən çıxarılacağı ilə bağlı təhdidlər almaqdadır: ” Bu tam mənada internetin bağlanması anlamına gəlməsədə, bank işinin pozulmasına gətirib çıxara bilər. Bizi hələlik bununla qor-

**Rusiya sosial şəbəkələrlə bağlı istənilən sayda qanunlar qəbul edə bilər. Lakin şəbəkələrə girişin dayandırılması Rusiyaya böyük zərbə ola bilər. Qərb sosial şəbəkələrin akkauntların girişinin bağlanması ciddi gərginliyə səbəb ola bilər. Görünür ”Sem dayı” Kremlin boş damarın taptamaq istəyir və yaxud təhdid edir.**

**Rüstəm Hacıyev**

# Əbülfət Mədətoğlu: "Gözümün qabağında düşmən evimizi yandırdı..."

***”Tuğ kəndi deyəndə mən bütün həyatımı, doğmalarımı, səcərələrimi gözümün önünə gətirirəm. Çünki insanın bir başlanğıcı var və bir varlıq olaraq mənim də başlanğıcım Tuğdan başlayır”***



Bunu Moderator.az-a açıqlamasında şair, publisist Əbülfət Mədətoğlu deyib. Əməkdar jurnalist doğma Tuğ kəndindin işğaldan azad edilməsinə görə sevindiyini bildirib:

***”Tuğ kəndi deyəndə mən bütün həyatımı, doğmalarımı, səcərələrimi gözümün önünə gətirirəm. Çünki insanın bir başlanğıcı var və bir varlıq olaraq mənim də başlanğıcım Tuğdan başlayır. Orda doğulmuşam, orta məktəbi oxumuşam, 16 yaşıma qədər yaşamışam, həyata münasibətim orda formalaşıb və bir yazı adamı olaraq ilk şeirlərimi orda yazmışam.***

***Məqalələrim qəzetlərdə çap olunub, şirin qonararımı da orda almışam. Ona görə Tuğ elə mənim hardasa özümdü. Güzgüyə baxanda özümü necə görürəmsə, Tuğu da elə görürəm. Onun dağları, hər iki tərəfindən axan çayı, bulaqları, xüsusilə onun şor bulaqları eləydi ki, qışda onun içində elə bilirdin ki, qızdırıcı nəsə var, istiliyindən əl vurmaq olmurdu. Yayda isə buz kimi olurdu, dodağını üşüdürdü. Belə yerlər insanın bir ömrüdür, bütövlükdə mənasıdır. Mənim üçün Tuğ budur”.***

Şair ata evinin onun gözü qarşısında düşmən tərəfindən yandırıldığını və bu dəhşətli mənzərəni heç vaxt unutmayacağını bildirib:

***”Bizim evi gözümün qarşısında 1991-ci il oktyabrın 30-dan 31-nə keçən gecə düşmən yandırdı və mən də baxa-baxa qaldım. Onda Dağlıq Qarabağda Təşkilat Komitəsində işləyirdim. Rusların Sovet ordusunun döyüş maşının içindən yanan evimizə baxırdım, amma heç nə edə bilmirdim. Təsəvvür edin ki, gözünün qabağında evin yana və sən də buna baxa-baxa qalasan. Çox dəhşətli bir mənzərə idi. İndi kəndimiz işğaldan azad ediləndən sonra qardaşım və oğlu gedib kəndimizə baş çəkiblər. Qardaşım oğlu polis əməkdaşıdır, orda xidmət edir. Şəkilləri mənə gətiriblər və təsəvvür edin ki, yanan evimizin yerində əncir ağacı bitib. Ora mənim ata yurdum idi və bizim məhlədə isə heç vaxt əncir ağacı olmayıb və bu nədir bilmirəm, bəlkə bunun da bir yozumu var”.***

Ə.Mədətoğlu doğma kəndində qayıdacağını deyib:

***”İnşallah kəndimizə qayıdacağıq. İnsan doğulduğu yerə ən azından ölmək üçün qayıtmalıdır. Allah verən ömür nədirsə, mütləq ora dönərik. Diqqətinizə görə mən sizlərə də minnətdaram”.***

Qeyd edək ki, Əbülfət Mədətoğlu 1959-cu il yanvarın 1-də Dağlıq Qarabağın Xocavənd rayonunun Tuğ kəndində anadan olub.

# Camal Əhmədov Əlisoy Əliyevdən nə yazdı?

**Əlisoy Əliyev, əhvalat belə vaqe olmuşdu : Karvan üzü yuxarı urus bulağına çatanda əllərində urus bulağının müftə suyu ilə doldurulmuş vedrə olan hayqanuş,Siranuş və Anuş ərəbzəngi kimi karvanın qabağın kəsərək ,geri qayıt əə,İmamverdi,sən öl vedrəni təpənə çırparam deyərək kəblə müsü nə-**



**vəsi İmamverdini Drombondan Kəlbəcər yoluna buraxmadı,azca aralıdakı Ayı heykəli də heyrətləndi,ayı heykəli də ayı heykəli idi haa,qərinələr öncə elə urus bulağından azca irəlidə urusun özü tərəfindən Kəlbəcərin yox,özünün şərəfinə urus bulağının yanında qoyumuşdi,Hayqanuş anuş siranuş o bulaqdan bir litri bir manata yox ,müftə manata su daşıyırdı,Kəblə müsü nəvəsi İmamverdi Kəlbəcərdəki qızıl qiymətinə olan isti suyun qiymətini dünya bazarı qiymətinə qaldırmaq əvəzinə rəngi bom boz bozarmış ayı heykəlinə tərəf tüpürərək karvanı geri döndərib suqovuşana qayıtdı və suqovuşan suyunun qiymətini dünya bazarı səviyyəsinə qaldıraraq bahalı su ilə dəstəmaz alıb Axşam namazına başladı.**

**Namaz sahibi dərgahından baxırdı... baxırdı,görürdü və hər şeyi bilirdi bilirdi və gündə xəmsin yox,xəms səlat buyurmuşdu,kəblə müsü nəvəsi İmamverdi də cümlə müsəlmanlar kimi hər gün xəms rükət səlat buyruğuna əməl edirdi,məsələ orasında idi ki Kəblə müsü nəvəsi İmamverdinin dəstəmazı və qüslü hər gün filan qədərə başa gəldiyi halda,Anuşun ,Hayqanuşun və Siranuşun dalı müftə su ilə yuyulur,təharət edilirdi,Kəlbəcərin isti suyu isə dünya bazarlarında satılaraq onlara ətək ətək dollar daşıyıb gətirirdi,bu mənzərəyə namaz sahibi də baxırdı,urusun qərinlər öncə urus bulağı yanında qoyduğu ayı heykəli də....**

Fazil Mustafa

# URVATSIZLAŞDIRILAN QƏLƏBƏ



**Eşidəcəyiniz doğrudur. Gündəlik xəbər oxunuşuna rusdilli erməni saytlarından və sosial şəbəkə səhifələrindən başlayıram. Qələbəmizin möhtəşəmliyini, dəyərini daha çox düşmənin məyusluğundan, çarəsizliyindən, qarşılıqlı ittihamlarından təsəvvür etdikdən sonra dönürəm öz doğma dilimizin incəlikləri ilə dolu olan sosial şəbəkəmizə. Daha çox giley, narazılıq, etirazçılıq, saxta vətənpərvərlik dozası qarşıma çıxır və artıq qələbəmizin böyüklüyü fonunda bu zəhərlənmə prosesi düşüncəmi özünə tabe etdirə bilmir.**

Erməni öz məyusluğunda qalsın, ancaq müşahidə edirəm ki, erməniləri himayə edən başqa düşmənlərimiz də şanlı qələbədən sonra qalib xalq ruhununda yenidən dirilən Azərbaycana qarşı ciddi qorxu ilə yanaşırlar. Burada Qərb texnologiyası da, fars, rus texnologiyaları da özünü hər addımda və hər adamda asanlıqla büruzə verir.

Dostlarının məğlubiyyətini həzm etməyən düşmənlər və yaxud əsas düşmənimizin himayəçiləri ölkəmizdən kənarda və ölkəmizdə olan siyasi peykləri vasitəsilə antitəbliğatlarını ilk öncə nədən başlayırlar? Böyük qələbəmizi urvatsızlaşdırmaqdan! Bunun üçün ilk olaraq hansı addımlar atılmalıdır? Qutlu savaşda şanlı qələbəni bəsitləşdirmək!

### *Qarabağ savaşı*

***sonrası məgər başqa hal baş verib? Addım-addım bu qədər şəhid verərək qazandığımız savaşı artıq sosial şəbəkə üzərindən bəsitləşdirə bilmişlər. Təqribən belə ifadə edirlər: "Rusiya neytral qalandan sonra, Türkiyə hər cür dəstək verəndən sonra nə var ki, Qarabağı azad etməyə? Nə var ki, Bayraqdarın köməyi ilə erməni tankının, topunun anasını ağlatmağa?"***

Ardınca da urvatsızlaşdırma gəlir. Birisi qatı milliyətçi, turançı ədası ilə əsəbi ovqatı puləyir cəmiyyətin canına:

"Rusiya yenidən torpağımıza qayıdacaqdısa, elə qoyardınız Qarabağ ermənidə qalardı. Hər şey bitdi, rusu oradan necə çıxaracağıq? Digəri də dinçi qafasına doldurulan tezisi cəmiyyətə boy atmaq üçün göndərir: "İsrailin, yəhudinin köməyindən istifadə etməkdənsə, enində-sonunda buraxardınız erməniləri Həzrət Abbasın şilləsinin öhdəsinə. Er-gec onsuz da bu şillə dəyən kimi erməni qarşımızda diz çökəcəkdi". Digəri də Qərb demokratiyasının bakirə mələyi kimi; "ABŞ nədən bölgədə yoxdur" deməyə risq etməyərək, Türkiyənin burada yerləşməsinə Qərbin və rusun imkan verməyəcəyi fikrini püləməklə məşğuldur. Ardınca şəhid məzarlarını siyasi etiraz formasına çevirənlər, ardınca Xankəndinə qonaq gedə bilməməsini dərd edənlər gəlir. Məcburi köçkünlərin qayıtmaq istəmədiyini tirajlayanlar, orden, medal ədalətsizliyindən sitəm edənlər və daha kimlər və daha nələr.

### *Bu qədər böyük müharibənin uğuru*

***mütləq və mütləq qələbəyə layiq bir cəmiyyət yetişdirməliydi. Ancaq məğlubiyyətə alışmış qafalar qələbə havasını udmaq istəyənlərə, qalib xalqa çevrilmək istəyənlərə ciddi direniş göstərirlər və hələ ki və nə yazıq ki, bu direniş uğurlu alınır.***

İndi baxın, ən kiçik problemlərlə baş qarışdırılmağa çalışılan dövlətin reaksiyası gecikmir. Şəhid məzarlarının yeri dəyişdirildi. Əlbəttə, hansı şəhid ailəsi bunu arzulayırdısa, nəzərə alındı.

Bir neçə məzarda uyuyan şəhidin ailəsi məzar yerinin dəyişməsinə razı olmadılar. Onların da rəyinə hörmətlə yanaşıldı.

Bu, sadəcə ənənəvi məmur laqeydliyindən doğan məsələ idi və əslində həmin məzarlıq da elə-belə sıradan bir yer sayılmazdı.

Bildiyim qədərincə orada birinci cərgədəki məzarların bazar qiyməti 20-30 min manat arası dəyişir və ənənəvi olaraq bəziləri azərbaycanlı mentallığına uyğun olaraq o dünyada yer kiralamaq düşüncəsi ilə ölmədən o pulu ödəyib donqili başdaşları da qoymuşlar.

Digər yerlərin də qiyməti 5-10 min manat arası dəyişir. Ölkədə əsas biznes qəbir yerindədir e... Sadəcə bəzi səlahiyyətli məmurlar şəhidliyin mahiyyətini anlamadıqlarına görə, ucuz yerləri seçmişlər. Burada da yaxşı ki, su məsələni hər şeyi aydınlığa çıxarmış oldu. Bu prosesdə şəhid ailələrini anlamalıyıq. Dövlət bundan sonra da şəhid ailələrinə ən yüksək səviyyədə yardım göstərsə də, onların itkisi o qədər ağırdır ki, bu dəstək bundan sonra da təsəllidən o tərəfə keçə bilməyəcək. Hərçənd ki, bir şəxsiyyət olaraq hər bir şəhidin özü bu maddi dəyərlərdən ucada durmağı bacardığına görə öz mərtəbəsində layiq olduğu yeri tutub.

### *Bilinən gerçək budur ki,*

***addım-addım ailə üzvü də, laqeydlik göstərən o məmur da, mən də, sən də o şəhidə, o qaziyə layiq olmağı milli vəzifə kimi görməyə başlayacağıq. Həm də anlaşılan budur ki, siyasi qışqırıqçıların və sosial şəbəkə xuliqanlarının bu mövzunu istismar etməsi birbaşa qələbəni urvatsızlaşdırma niyyəti daşımaqdadır. Bilərəkdən, yaxud bilməyərəkdən. Çoxları anlayır ki, yuxarıdakı və ya aşağıdakı bir neçə məmurun başıboş davranışınından yaranan sıxıntını dövlət mütləq düzəldəcək. Necə ki, düzəltdi də! Şəhid və qazi mövzusunda həssaslığı bu gün ən çox cəmiyyətə aşılayan dövlətin özü olduğuna görə, burada narazılıq üzün hansısa yer saxlanılmamasına çalışılır. Hərçənd ki, başqa mövzularda eyni həssaslığı bir çox hallarda müşahidə etmirik. Qaza, suya ödənişlərin artımına, bazarda qiymətlərin katostrafik şəkildə qaldırılmasına görə cavabdeh qurumlar hələ də vətəndaşlara hansısa ağlabatan izahi verməyi düşünmürlər. Bu sferada etirazçılığı anlamaq mümkündür, ancaq bir çoxlarının dövlətə şəhid və qazilərə münasibətin necə olmasını öyrətməsi kənardan olduqca gülünc və süni görünür.***

Bu arada Türkiyənin niyə gəlmədiyini də başa qaxınc edənlərin nigarançılığına gözlənildiyi kimi Türkiyə özü son qoydu. Gəldilər, ruslarla birlikdə Monitorinq Mərkəzini də açdılar. Elə ruslarla birlikdə də Naxçıvan yolunu da açacaqlar.

Elə ruslarla birlikdə erməniləri də bölgədə adam kimi davranmağa öyrədəcəklər. Əgər siz orta məktəbdə ibtidai təhsilin ən azı dörd il davam etdiyindən xəbərdarsınızca və ardınca qələbədən üç ay keçməmiş bütün arzularınızın çin olmasını gözləyirsinizsə, elə arzularınızla da qalın. Böyük siyasət sizin bir yataqlıq yuxularınızla müəyyənləşmədiyinə görə, ya kənara çəkilb öz yuxularınızla baş-başa qalın, ya da böyük siyasətdən boş başınızı kənara çəkin.

### *Hələ bir son çıxış yolu da var*

***Qarabağı xilas etmiş və xilas edərkən də Azərbaycanı Qarabağ üzərindən təhdid edəcək təhlükələrdən xilas etmiş bir iqtidarın imzaladığı anlaşmanın gerçəkləşməməsinin bəlkə də ən real yolu Rusiyada hakimiyyət dəyişikliyi, yaxud da mövcud rus hökumətinin sosial xaosla üz-üzə qalmasıdır. Məntiqlə yanaşası olsaq, normal Azərbaycan vətənpərvəri, yaxud da günün qələbə sevincini yaşayan azərbaycanlısı üçün indiki şərtlərdə ən uyğun olanı məhz Putun Rusiyasıdır. Yadınıza salıram, 1917-ci ildə Rusiyada fevral inqilabı baş verəndə ən çox sevinənlərin sırasında milli azlıqlar gəlirdi. Azərbaycanda da sevinirdilər ki, artıq demokratik hürriyətlər dalğası gələcək. Az sonra bolşevik terroru oktyabrda baş verəndə hamı özünü bu terrorun girdabından qurtarmaq üçün müstəqil dövlət olmağa can atırdı. Bolşeviklər toparlanana qədər milli azlıqların çoxusu bu və ya digər dərəcədə müvəqqəti müstəqilliyini əldə etdi. Bolşeviklərin çarın sülaləsinə və özünə rəhmət oxutdurması üçün elə də çox vaxt keçmədi. Yəni yaxşı-pis, qısa müddətə də olsa biz müstəqil dövlət olma qazancı əldə etdik və böyük itkilər bahasına da olsa onun bərpası idealımızı gələcəyə daşımış olduq. 1991-ci ildə də SSRİ dağılanda yenə də perspektivdə müstəqil dövlət qurma şansımız yarandığına görə Moskvada baş verənləri səbrsizliklə izləyirdik.***

Şükürlər olsun ki, bu dağıntıdan sonra müstəqilliyimizi əldə etdik. Bəs XXI əsrin 20-ci illərində Rusiyada baş verəcəklərdən nə gözləyirik? Artıq 30 ilin müstəqil dövlətiyik, üstəlik də Qarabağ problemini 44 günə dörddə dörd həll etmişik, indi özünü ən ağıllı hesab edənləriniz söyləsin görək Rusiyada sabitlik bizə vacibdir, yoxsa xaos? Navalnının göbəyini hansınız kəsmisiniz ki, onun yerinə şəhadət gətirirsiniz ki, Rusiyada demokratiya bərqərar olacaq? Havalnı Gürcüstanda, Krımda işğalçılığa haqq qazandıranda qulaqlarınızı deyəsən qapatmışdınız. Bir də küçədən gələn dalğa tarixdə haçan Rusiyaya demokratiya və yaxud cüzi də olsa xoşbəxtlik gətirib ki?

Bizim qələbə bəyanatımızın altında indiki Rusiya prezidentinin imzası var, Azərbaycanla bağlı mövqeyi də indiki şərtlərdə maraqlarımızı təmin edir, indi nə deyirsiniz, bu imzadan yayınmaq ehtimalı olan başqa bir qüvvənin gəlməsinimi arzulayırsınız? Məhz indiki məqamda Rusiyada hakimiyyət dəyişikliyini arzulayanlar və bunu cəmiyyətimizə təbliğ edənlər Qarabağ qələbəmizin yarımçıq qalmasını arzulayanlardır. Bilməməzlikdən yox ha, sadəcə qanmazlıqdan! Bəlkə də qanaqana edirlər. Baxın, eyni zehniyyət bələdiyyə seçkilərində İmamoğlunun da Ərdoğana Türkiyədə qalib gəlməsinə sevinirdi. Halbuki daha güclü Ərdoğan Azərbaycana daha güclü dəstək deməkdi.

Siz elə bilirsiniz ki, Türkiyədə Süleyman Dəmirəl zehniyyətində biri iqtidarda olsayda Azərbaycanla bağlı bu qədər risqi gözə alacaqdı? Ərdoğan hamıya meydan oxudu, dedi ki, Azərbaycana toxunan olsa, anasını ağladaram.

Odur ki, sağlam düşünən azərbaycanlı başqa ölkələrdə baş verənlərə də özünün xəyali demokratiya marağından deyil, müqəddəs Azərbaycan marağından baxmalıdır. Bu gün heç İranda da hansısa xaos, mərkəzdənqaçma, sanksiya basqısı bizim milli maraqlara uyğun deyil. Görmürsünüz ki, İran özü də 5 ay öncəki İran deyil? 5 ölkəni gəzib hamını özünün dəyişdiyinə inandırmaq istəməsi və inteqrasiyaya can atması bizi niyə sevindirməməlidir? Xəyallarınızda illərdir qurduğunuz siyasət masadakı, məkandakı siyasətlə uzlaşmırsa, gələcəyimizə nədən mənasız ümidsizliyi daşımağa can atırsınız?

### *Əslində Azərbaycan siyasətində*

***əsas problem ikiüzlülüklə bağlıdır. Ötənlərdə söyləmişdim ki, Qarabağın azadlığı Rusiya ilə anlaşma ilə gerçəkləşərsə, o halda anti-Rusiya mövqeyi tutmağımız səfehlikdir. Xaricdən otarılan sosial şəbəkə qaragüruhu ifadənin başını-ayağını dəyişərək əleyhimə kampaniya başlatdı. Bu gün qaragüruhçuluğa meydan oxuyaraq doğruları söyləməkdə israr etmək nə qədər ağır əsəb bahasına başa gəlsə də, qətiyyən ikiüzlülük etmək olmaz, Azərbaycan naminə iqtidara da, müxalifətə də, cəmiyyətin qananına da, qanmazına da anladıqları dildə və üslubda bu gerçəyi söyləməliyik. Şərti olaraq işlətdiyim ifadədə Rusiya əvəzinə ABŞ da yaza bilərsiniz, Avropa Birliyi də İran da. Hətta Ermənistan da.***

Mənə öz Vətən torpağımın azadlığı lazımdır, bunun üçün kiminsə başını əzəcəyəm, kiminləsə sövdələşəcəyəm, kiminsə neytrallığına çalışacağam, kiminklə qardaş olacağam, artıq bunlar taktiki məsələlərdir. Maraqlıdır ki, qələbəmizin memarı olan ölkə prezidenti də məhz bu taktiki addımların hamısını atıb, həm də uğurla atıb. Rusiya sülhməramlıları da onun imzaladığı bəyanata əsasən gəlib, Türk əsgəri də məhz onun tələbindən sonra bəyanatın maddələrinə daxil olmadan bölgəyə daxil olub.

Bir siyasətçi kimi mən də səlahiyyət sahibi olsaydım məhz bu addımı atardım və nəticəsinin də uğuruna inamım tamdır. Ancaq birisi çıxıb dövlət televiziyasına bəyanatın böyük uğur olduğunu təbliğ edirsə, ardınca dövlətdən aldığı vəsaitlə açdığı sosial şəbəkə səhifəsində Rusiya sülhməramlılarının gəlişini xəyanətə bərabər tutursa, bu sadəcə ikisifətlilik olmur, məqsədyönlü şəkildə qələbəni urvatsızlaşdırmaq olur.

***Bu da bizə Qərbdən, ermənidən gələn bir istiqamətdir ki, cəmiyyətdə Rusiya ilə münasibətlərimizi çılpaq şəkildə, həm də hədsiz emosiyalarla müzakirə edək. Çünki Rusiya şovinizminin qıcıqlandırılması üçün bundan faydalı hansı istiqamət ola bilər ki?***

***Biz də zaman-zaman məcbur oluruq ki, əks arqumentlərdə emosiyalarımızı bir az çərçivəyə salıb cəmiyyəti soyuqqanlı düşüncəyə yönləndirək. Baxışlar fərqli ola bilər, ancaq fikrimcə vaxtilə Rusiya ordusunun Azərbaycandan çıxarılması həqiqətən mərhum Elçibəyin ən böyük xidmətlərindən biri idi. Elçibəyin məntiqi çox sadə idi. Rusiya birlikləri birini Bakıda, digərini Lənkəranda, başqasını Gəncədə silahlandırırsa, o halda sabit dövlət qurmaq mümkün olmayacaq, addımbaşı çevrilişlər nəticəsində Azərbaycan banan dövlətinə çevriləcək. Nəyin bahasına olursa olsun bu qoşun çıxmalıdır ki, təhlükə ilə iç-içə deyil, üz-üzə qala bilək.*** Sadəcə Rusiya qoşunu çıxandan on gün sonra Gəncədə bu qoşunun silahlandırdığı qüvvənin qiyamı başladı və qısa müddət ərzində bəndənizin də üzvü olduğu təcrübəsiz bir iqtidar toparlana bilmədi və dövlət çevrilişi baş tutdu.

Mərhum Heydər Əliyev öz çevik siyasi manevrləri ilə prosesin xarici qüvvələrin maraqlarına uyğun dəyişməsinə imkan vermədi və sabit hakimiyyət formalaşdırmaq üçün vaxtında zəruri addımlar ata bildi. Ancaq əminəm ki, əgər Rusiya qoşunu burada olsaydı, 1994-cü ilin və yaxud 1995-ci ilin hərbi müxalifətinin Heydər Əliyevə qarşı çevrilişi gerçəkləşdirmək şansı kifayət qədər ciddi olacaqdı. Demək ki, Elçibəyin vaxtında atdığı tarixi addım Azərbaycan dövlətinin sabit təməl üzərinə keçməsinə imkan tanımış oldu.

### *Deyərlər ki, tarix təkrar olunur,*

bu ehkamı düşüncəm əsaslı olaraq hələ də qəbul etmədi. Çünki Heraklit daha məntiqli izah edirdi ki, bir çaya eyni zamanda iki dəfə düşmək olmaz. Amcaq əmin olduğum bir tezis var ki, o da insan ağlının və ya ağılsızlığının dönə-dönə təkrar olunmasıdır. Bölgəyə Rusiya sülhməramlılarının gəlişinə də tarixin təkrarı olaraq deyil, bizim nə dərəcədə ağıllı və ağılsız davranacağımız proses olaraq baxılmalıdır, məncə.

İndiki Rusiya missiyası tamamilə başqa və real şərtlərdən doğan, həm də yalnız Qarabağın bir hissəsi ilə, həm də zamanla məhdudlaşan bir missiyadır. Bu missiya ilə birlikdə biz həm də bölgəyə qardaşımız, baştacımız olan Türkiyəni də silahı ilə birlikdə gətirmişik. Qarabağ indi yalnızca bizim, ermənin, rusun yerləşdiyi bölgə deyil, həm də Türkiyənin bütün imkanları ilə söz sahibi olduğu bölgədir. Böyük Mehmet Akifin "İstiqlal" marşının başlanğıc misrasındakı başlanğıc sözünü burada xatırlatmanın yeri var: "Qorxma!" Bundan sonrakı mərhələdə biz sadəcə ağılsızlıq etməzsək, hamını öz ssenarimiz üzrə hərəkət etməyə inandıracağıq. Hətta anlamaz saydığınız erməniləri də!

Bu urvatsızlaşdırma kampaniyasında prezident komandasının hadisələrə, proseslərə vaxtında və anlaşılan formada izah verə bilməməsi də az rol oynamır.

44 gün ən kritik anlarda prezident öz orijinal çıxış üslubu ilə milləti qələbəyə daşıdı. Hər səlahiyyətli məmur qələbədən sonra çox yox, 44 gün də yox, sadəcə ayda dördcə gün 44 dəqiqə qələbənin mahiyyətini və gələcəyimizin konturlarını doğru izah edə bilsəydi bu cür möhtəşəm, tarixi, millətimizi və dövlətimizi yenidən dirildən qələbəni hansı qüvvə urvatsızlaşdıra bilərdi? İqtidarın monoton və bürokratlaşmış informasiya cinahı sosial şəbəkənin dağınıq iynələməsinin gücü qarşısında yeniləşməyi bacarmadıqca, qələbənin urvatsızlaşdırılması daha acınacaqlı nəticələr doğura biləcək.

**Başqalarına ağıl öyrtəmək məqsədim yox, sadəcə bəyan etmək istədim ki, mən özümü bir vətəndaş olaraq bu qələbənin tam hüquqlu sahibi hesab edirəm. Mən öz içimdən məğlub xalqın obrazını silə bilmişəm. Mənim qələbəmi kimsə urvatsızlaşdıra bilməz. Biz qalib xalqın yeni nəsli məğlub xalqın köhnə nəslinə azacıq da olsa güzəştə gedərsək, Qarabağ bundan sonra ən yaxşı halda bizim üçün işğaldan azad olunmuş ərazi kimi anlaşılacaq. Halbuki təcili və əbədi Vətən olması lazım...**



*Rəşad Məcid*

# "Bir mahnının tarixçəsi"

**İctimai televiziyanın ən uzunömürlü layihələrindən olan "Bir mahnının tarixçəsi" verilişi öz səviyyəsini yaranandan saxlayır. Zaman dəyişir, sədrlər dəyişir və bununla bərabər tələblər, zövqlər də dəyişir, amma bu veriliş öz nüfuzunu, sanbalını hər zaman qoruyur.**

**Niyə?**

**Birincisi ona görə ki, verilişin müəllifi Könül Arifqızı gördüyü işə sevgi ilə, şövqlə, məsuliyyətlə yanaşır və bu əvəzləmələrin öz işinə - verilişə mənfi mənada təsirinə, yoluxmasına imkan vermir. Hər dəfə baxırsan, veriliş dopdoludur, bir dənə də olsun boşluq yoxdur, mövzu ilə bağlı ən xırda detallarınacan bütün məqamlara toxunulur. İndi televiziyalarımızda belə incəliyinəcən araşdırma verilişlər azdır. Bu səviyyədə araşdırmalara fərqli mövzularda verilişlər hazırlayan telejurnalistlərimizin də fəaliyyətində rast gəlməyi arzulayardıq. Ortada öyrənmək, daha da irəli getmək üçün milli efirimizə başucalığı gətirən belə bir nümunə var - təki istedad, arzu, istək və şövq olsun.**

**Budəfəki veriliş Cavanşir Quliyevin "Bura Vətəndir" mahnısına həsr olunmuşdu. Yenə də hər şey peşəkarcasına hazırlanmışdı: efirlərdə az-az görünən bəstəkarın, mahnının sözlərinin ondan da az görünən müəllifi, şair Dilsuz Mustafayevin, müğənni Akif I?slamzadənin bu dəyərli müsiqi nümunəsinin yaranma ideyası, ərsəyə gəlməsi barədə dolğun xatirələri və hədsiz informasiya ilə dolu süjet.**

**Məşhur "Sarı gəlin" mahnısının mətninə Dilsuz Mustafayevin etdiyi əlavələr barədə məlumatlar o qədər yeni və maraqlı idi ki, mövzudan azacıq kənarlaşma hiss olunmadı. Bəstəkar Aydın Əzimin Hüseyn Saraclının sazının Cavanşır Quliyevə necə gəlib çıxması barədə və danışdığı başqa xatirələr verilişə əlavə rəng qatırdı. Hələ Sovet hakimiyyəti illərində - 1977-ci ildə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin Bədii şurasında keçrîrilən müzakirələr zamanı komitənini sədr müavini, şuranın sədri, yazıçı Cəmil Əlibəyovun "türk ruhu" duyulan bu musiqi nümunəsinin efirə verilməsindən çəkinən şura üzvlərinin etirazına baxmayaraq, mahnının yayımlanmasına yaşıl işıq yandırması, eləcə də zamanın ideoloji tələblərinə görə şair Dilsuz Mustafayevin 7 bəndlik şeirindən Dərbəndə və Təbrizə aid bəndlərin mahnıdan kənarda qalması ilə bağlı deyilənlər o dövrün ideoloji ab-havası haqqında müasir tamaşaçıya informasiya vermək baxımından olduqca əhəmiyyətli idi.**

**Belə verilişlər tamaşaçıya zövq verməklə yanaşı, həm də televiziyalarımıza, onların yaradıcı kollektivinə güvən və inamın artması baxımından çox önəmlidir. Bizə bu gözəl hissləri yaşatdıqlarına görə verilişin müəllifinə və yaradıcı heyətinə xüsusi təşəkkür düşür.**

**Şövqünüz azalmasın.**

# QİYMƏTLƏR KƏLLƏ-ÇARXA QALXIR

**Hər səhər açılanda biz o səhərin gəlişini ümidlə, sevgiylə, istəklə gözləmişik. Gözləmişik ki, səhər açılacaq, hansısa arzumuzu, istəyimizi gerçəkləşdirəcəyik. Belə səhərlərimiz çox olub. Və belə səhərlərdən ən gözəli Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin və Ordumuzun köməkliyi ilə işğal altında olan torpaqlarımızın azad edilməsi idi. İnanın, o səhəri, o günü və o günün sevincini 200 il bundan sonra da yaşayacağıq və 10 milyon əhali ömründə sevinmədiyi anları yaşadı. Ona görə bu xalq, bu millət göydə Allaha, yerdə Ali Baş Komandana və Azərbaycan Ordusuna minnətdardı.**

Amma bir də görürsən ki, səhər açılır, qanın itin qanına dönür. İtin qanına dönməsin, neyləsin. Bir göz qırpımında yanacağın qiymətinin qalxmasıyla bütün məhsulların və sənaye məhsullarının qiyməti fantastik dərəcədə artır. Yaxşı, indi deyək ki, dizel yanacağının qiyməti 20 qəpik bahalaşıb. Eləcə də benzinin qiyməti 10 qəpik artıb. Buna normal baxmaq olur. Çünki qiymət artımı ötən yazılarımızda qeyd etdiyim kimi, dünyanın hər yerində nəzərə çarpır. Hətta özündən deyən və inkişaf eləmiş ölkələrdə belə qiymət artımı var. Amma ona normal baxmaq olmur ki, bizdə qiymət artımı olan kimi süni bahalaşma daha çox nəzərə çarpır.

### *Yanacağın qiyməti qalxandan sonra*

***bütün ərzaq məhsullarında və yeyinti məhsullarında qiymətlər kəllə-çarxa qalxıb. Bu qiymət artımı bayaq dediyimiz kimi, gözlənilən idi. Amma bu qədər yox. Gözləyirdik ki, ərzaq məhsullarının qiyməti uzaqbaşı 20-30 qəpik qalxar. Ancaq biz bunun əksini gördük. Məsələn, görürük ki, elə ərzaq məhsulları var ki, qiyməti 1 manatdan artıq bahalaşıb. Bu məhsulların sırasına qənd, yağ, yuyucu tozlar və digər ərzaq malları daha çox üstünlük təşkil edir.***

Millət vəkili Vahid Əhmədov da bahalaşma ilə bağlı danışarkən süni qiymət artımını bir daha xüsusilə vurğulayıb. Millət vəkili bildirib ki, bir çox məhsulların qiymətində 1 manat, 1 manatdan artıq bahalaşma var.

Deməli, ölkənin iqtisadi cəhətdən çətin durumunda yenə bəzi işbazlar süni qiymət artımı yaratmaqla öz maraqlarını təmin edirlər. Ölkəmizdə isə süni qiymət artımının qarşısını ala biləcək kifayət qədər nəzarət orqanları var. Onlardan biri İqtisadi İnkişaf Nazirliyinin Antiinhisar və İstehlakçıların Hüquqlarını Müdafiə Departamentidi. Biz imanımızı yandıra bilmərik. Yəqin ki, həmin departament süni bahalaşma məsələsini diqqət mərkəzində saxlayır. Və hətta qanunu pozan ticarət obyektləri inzibati qaydada məsuliyyətə cəlb olunurlar. Ancaq çox təəssüf ki, onların bu fəaliyyəti süni bahalaşmanın sürətinin qarşısını tam ala bilmir. Ən azından ona görə ki, əhali bu bahalaşmanı bütün marketlərdə, mağazalarda və ticarət obyektlərində görür. İnsanların gündə üzləşdiyi belə neqativ hallar təbii ki, əhali tərəfindən birmənalı qarşılanmır, böyük narazılığa və narahatlığa gətirib çıxarır.



***Ümumiyyətlə, nəzarət orqanları nə qədər çox olduqca, qanun pozuntuları da bir o qədər artır. Yəqin ki, insanlar bunu hiss etməmiş deyil. Görünür, bəzi nəzarət orqanları dövlətin və xalqın mənafeyindən çox öz maraqlarını üstün tutur və bir çox halda xoşagəlməz faktlara göz yumurlar.***

Qiymət artımı heç vaxt özbaşına baş verə bilməz. Yəni hər hansı məhsulun qiyməti Tarif Şurası tərəfindən müəyyənləşdirilir. Bizdə də Tarif Şurası bir də görürsən ki, əhalinin iqtisadi durumunu nəzərə almadan bir gecənin içində ya yanacağın, ya elektrik daşıyıcılarının, ya da suyun qiymətini qaldırır. Heç düşünmürlər ki, indiki mürəkkəb iqtisadi durumda əhalinin kasıb təbəqəsi bu qiymət artımının öhdəsindən necə gələcək.



Camaat cüzi məvaciblə dolanışığa pul versin, yaşayışa pul ödəsin, yoxsa tez-tez bahalaşan kommunal xərclərin pulunu ödəsin?! Bax, insanlar belə olanda da qalırlar odla su arasında.

### *Artıq fevralın 1-dən*

***Tarif Şurası tərəfindən suyun da qiyməti qaldırılıb. Yəni əvvəllər 1 kubu 50 qəpiyə olan su fevralın 1-dən 1 manata satılacaq. Belə ki, içməli su 20 qəpik, kanalizasiya suyu isə 30 qəpik bahalaşıb. Yenə deyirik, bahalaşma ola bilər. Amma bu qədər də yox! Su o qədər də baha qiymətə dövlətə başa gəlmir. Düzdür, dövlət ölkəmizdə su infrastrukturunun yenidən qurulması üçün milyonlarla manat vəsait ayırıb. Bunu hamı qəbul edir. Amma onu qəbul etmək olmur ki, bizim içdiyimiz suyun keyfiyyəti o qədər də yüksək deyil. Məsələn, Bakıda əhalinin əksər hissəsi Kür çayından təmizlənən suyu içir.***

O suyun tərkibi isə heç də dünya standartlarına cavab vermir. Başqa sözlə demiş olsaq, həmin suyu qaynatmadan içmək olmur. Suyu da qaynadanda onun tərkibindəki bütün minerallar məhv olur. Onda qiymət bahalaşırsa, zəhmət çəkib əlaqədar qurumlar suyun keyfiyyətini də yüksəltməli və əhalini fasiləsiz olaraq su ilə təchiz etməlidir.

Bir neçə faktı da su sayğacları barəsində xatırlatmaq istəyirik. Məsələn, Yeni Güneşlidə 2 il bundan əvvəl bizim yaşadığımız mənzilin su sayğaclarını dəyişiblər. Və su sayğacı da dəyişəndə hamı qarışıq biz də çox sevindik. Ancaq sevincimiz uzun çəkmədi. Əgər əvvəlki sayğacda 1 ay müddətində supulu 5 manat göstərilirdisə, yeni sayğacda 9-10 manat yazılır. Bu barədə biz Suraxanı rayonundakı su satışı idarəsinə məlumat versək də, onlar sayğacı dəyişmədilər. Hətta əməkdaşlardan biri gəlib baxdı və dedi ki, düzdür, sizin sayğacınız çox yazır. Narahat olmayın, bu gün-sabah sayğacı dəyişərik. Onların dediyi bu gün-sabahdan düz 7-6 aya qədər vaxt keçib, yenə təzə sayğac bizdən oğurluq edir. Yanvar-dekabr ayında hər ay 10 manat su pulu ödəmişik. Hansı ki, bayaq dediyimiz kimi, əvvəllər yanvar-dekabr aylarında 5 manat pul ödəyirdik. Qışın oğlan çağında 3 nəfərə bu qədər su işlətmək sizcə inandırıcıdırmı? Yenə yay vaxtı olsaydı, buna inanmaq olardı. Amma qışın bu soyuğunda 20 kub su işlətmək yəqin ki, bir o qədər də reallığı əks etdirmir.

Sözümüzün canı odur ki, qiymət artımı varsa, zəhmət çəkib əlaqədar qurumlar o sayğacların da dəqiq işləməsinə nəzarət etməlidirlər. Yoxsa, hər abonent bu çətin durumdan nə üçün aldanılmalı, istifadə etmədiyi suyun pulunu ödəməlidir? Bizdə bir çox halda istehsalçıların yox, satıcıların yox, istehlakçıların hüquqları pozulur. Onu isə kimsə qorumaq istəmir. Sadəcə olaraq, həmin istehlakçı da uzun müddət mücadilə və mübarizə aparmalı, istehsalçılarla əlbəyaxa olmalıdır. Və uzun mücadilədən sonra bəlkə həmin istehlakçı öz hüququnu qoruya bildi.

### *Suyun qiyməti qalxıbsa,*

demək olar ki, "Azəristiliktəchizat" da fevral ayından istiliyin qiymətini qaldırmağa məcbur olacaq. Axı onlar da binaları su ilə qızdırır. Deməli, yenə yük əhalinin çiyininə düşəcəkdir. Amma elə eləmək lazımdır ki, bu insanlar o yükü daşıya bilsin. Həddindən artıq qiymət artımı o yükü daha da ağırlaşdıracaq, əhalinin narahat edəcəkdir. Üstəlik də, qiymət artımı zamanı süni hallar bu məsələni bir qədər də çətinləşdirə bilər.

**Ona görə də ölkədə bütün xidmət sahələrində sayğacların dəqiq işləməsinə diqqət yetirilməli, eləcə də süni qiymət artımına şərait yaradan amilləri vaxtında aradan qaldırmalıdır. Qeyri-obyektiv və süni qiymət artımı aradan qaldırmaqla əhali arasında normal şərait yaradılmalı və insanların gələcəyə olan ümidi qırılmamalıdır.**

**Faiq QİSMƏTOĞLU**

# Distant təhsil üçün şagirdlərinə internet paketi alan müəllimlər var

***Posu Mansırlı Ağstafa rayonunun Qıraq Kəsəmən kəndində anadan olub. Azərbaycan Müəllimlər İnstitutunun Qazax filialının Tarix və Coğrafiya müəllimliyi ixtisasını bitirib. Füzuli rayonu Qazaxlar kənd tam orta məktəbində çalışır.***

**- Yeni tədris mövsümü başladı...**

-Yeni tədris ili əvvəlkilərdən fərqli olaraq bu il pandemiya şəraitində başladı. Bu da özlüyündə bir çox problem və çətinliklər gətirdi. Bu dövrdə müəllimlərin üzərinə böyük vəzifə düşür. Həm tədris və təlim-tərbiyə ilə məşğul olmalı, həm də özünün və şagirdlərin təhlükəsizliyini qorumalıdır. Tədrisin həm əyani, həm də distant olması da müəyyən çətinliklər yaradır. Ümid edirəm ki, Azərbaycan müəllimi bu çətin sınaqdan üzü ağ çıxacaq.

### *Polad Həşimovun bizimlə olması ruh yüksəkliyi yaradırdı*

**-Bildiyim qədər hərbi xidmətin 2016-cı ilin Aprel dövrünə düşdü. Harada xidmət edirdin, səndə necə təəssürat yaratdı?**

-Universiteti bitirdikdən sonra hərbi xidmətə yollandım. Xidməti Tərtər istiqamətindəki N saylı hərbi hissədə ön xətdə keçdim. 2016-cı il aprel ayının 1-i günü cəbhədə bir gərginlik oldu. Komandirimiz bizə hazır olmağı tapşırdı. Aprelin 2-ə keçən gecə döyüşlər başladı. Tez bir zamanda düşmənin "Ohanyan səddi" adlandırdığı "keçilməz sədd" yarılaraq düşmən mövqeləri ələ keçirildi. Çox təəssüf ki, döyüşlər tez başa çatdı. İşğal olunmuş torpaqların bir hissəsi azad olunsa da böyük hissəsi yenə işğalda qaldı. Düzdür böyük qələbə çalsaq da, təəssüfki müharibə itkisiz olmur. Peşəkar zabitlərimizin, xüsusilə də əsgər yoldaşım olmuş Müşfiq Orucovun şəhid xəbəri çox pis təsir etdi. Həmin döyüşlərdə hər birimiz döyüşməyə, düşməni məhv etməyə və şəhid olmağa hazır idik. Təki, vətən sağolsun. Həmin dövrdə həmin zaman polkovnik olan qəhrəman şəhidimiz General Polad Həşimovun üst komandirlərimizdən olması və bizlərlə bərabər səngərdə olması bizi daha da həvəsləndirirdi.

**-2017-ci ildə Yardımlı rayonun kənd məktəbinə daxil oldun. İki il sonrasa iş yerini dəyişdin. Yardımlını Füzuliyə dəyişdirdən səbəb nədir?**

- İlk dəfə işə Yardımlı rayon Şıxhüseynli kəndində işə qəbul oldum. 2 il orada çalışdıqdan sonra iş yerimi dəyişdim. Yerimi dəyişməyimin əsas səbəbi dağ kəndi olduğu üçün şəraitin nisbətən zəif olması və gediş gəlişin çətin olması idi.

### *Qəbulda bal yığmaq üçün oxuyurlar*

**-Son dövrlər tarix fənnindən dərs keçən çox intelektual müəllimlərlə tanış olmuşam. Amma maraqlısı budur ki, ən ağsadığımız sahələrdən biri tarixdir.**

- Mənim fikrimcə tarix fənninin olduğu ixtisas qruplarında qəbul ballarının yüksək olması və ixtisas seçiminin az olmasıdır ki, şagirdlər bu səbəbdən digər ixtisas qruplarını seçirlər. Günümüzün reallığı budur ki, şagirdlər hazırlaşacağı ixtisas qrupunun fənlərini daha çox oxuyur. Digər fənləri ya oxumur, ya da ötəri oxuyur. Oxuyanlar isə tarixi dərindən öyrənmək üçün yox, qəbulda bal yığmaq üçün oxuyur. Bu da böyük təsir göstərir.



**-İki fənni tədris etmək. Tarix və coğrafiya. Biri digərinə mane olmur? Belə deyək, birinə daha artıq diqqət digərini kölgədə qoya bilər.**

-Tarix və coğrafiya fənləri məktəb dönəmindən sevdiyim fənlər olub və buna görə universitetə ixtisas seçərkən tarix və coğrafiya müəllimliyini seçdim. Bu gün hər ikisini eyni diqqət və sevgiylə tədris edirəm.

**-Distant təhsildən danışırıq hər birimiz. Bir çoxu ya formal keçir, ya da üzə düşərək onlayn tədrisi yüksək keyfiyyətlə həyata keçirdiyini söyləyir. Halbuki, belə olmadığını bilirik. Müəllimləri hələ kənara qoyuram, özümüz də bilirik ki, şagirdlərin əksəriyyəti onlayn tədrisə ya qoşulmur, ya da hər onlayn dərsə vaxt ayırmır.**

-Bu dövrə qədər distant təhsilin üzərinə düşülməməsi və birdən birə distant təhsilə keçid bir çox problemlər yaratdı. İstər şagirdlərin, istərsə də müəllimlərin smartfon, planşet, kompüterlərinin olmaması, eyni zamanda internet paketlərini baha olması həmin problemlərdən idi.Təbii ki, bir təhsil formasından birbaşa digər təhsil formasına keçid istənilən effekti verə bilməzdi. Ancaq buna baxmayaraq müəllimlərimiz bacardığı qədər təhsili distant şəkildə davam etdirməyə çalışdı. Hətta tanıdığım müəllimlər var ki, şagirdlərinə internet paketlər almaqla dərslərini davam etdilər. Həmin müəllimlər tək öz şagirdlərinə deyil ölkənin müxtəlif bölgələrindən olan şagirdlərə məsafədən dərslərini keçdilər.

**-Bəs, siz bu məsələni necə həll edirsiniz. Nəzərə alsaq ki, siz şəhər yox, kənd mühitinizdəsiniz. Internet , distant təhsilin çətinliyini görməmək mümkün deyil.**

-Belə olan halda bir çox problemlərlə qarşılaşırıq. Xüsusilədə kənd yerlərində. Düşünürəm ki, bu problemlərin həlli elə də çətin deyil. Bunun üçün mənim də bir neçə təklifim var. İlk növbədə internetdən davamlı istifadə etmək üçün kəndlərə sürətli internet xətləri çəkilməlidir. Mobil operatorlar güzəştli internet paketlər təqdim eləməlidirlər. Müəllim və şagirdlər üçün smartfon, planşet və komputerlər xüsusi endirimlə satılmalıdır. Ən əsas isə "Virtual Məktəb" lahiyəsində "Microsoft Teams" proqramı offline şəkildə də çalışmalıdır. Bu zaman bütün ölkə üzrə nəticə əldə eləmək olar.

**-Öz rayonunuza, kəndinizə gedib müəllimlik etmək fikriniz yoxdu? Nə zamana kimi oturaq deyil, kənd-kənd gəzəcəksiniz. Vakansiya yoxdur, ya ayrı səbəblər var?**

-Coğrafiya oxuduğum üçün istər dünyanın, istərsə də ölkəmizin müxtəlif bölgələri daha çox maraqlı gəlib. Bir-iki gün gəzməklə həmin yerlər haqqında ətraflı məlumat almaq çətin olur. Həmin yerlərin təbiətini, insanlarını öyrənmək üçün bir müddət orada yaşamaq daha yaxşıdı. Məsələn Yardımlı rayonunda işlədiyim zaman cənub rayonlarımızı gəzib daha yaxşı öyrənə bildim. Talış mətbəxinin dadlı yeməkləri ilə yerində tanış oldum. Tanımadığım bir çox ailələrdə qonaq oldum. İndi Füzuli rayonunda işləyirəm. Könül istər burdan Qarabağı gəzib daha yaxşı tanıyım. Çox təəssüf ki, öz əlimdə deyil. Torpaqlarımız işğal altındadır. Ancaq həmin günlərin yaxında olduğuna inanıram! Hələ bir neçə il öz rayonumuza gəlməyi düşünmürəm.

**-Tarix fənnindən ortaq türk tarixi məşğələ kimi tədris olunacaq. Bunu necə qarşılayırsınız? Hansı effektləri ola bilər?**

- Əvvəllər 11-c i sinifdə "Türk dünyası Coğrafiyası" keçirilirdi. İndi digər siniflərdə bir neçə mövzudan ibarətdir. Həmin dərsdə türk ölkələrinin coğrafiyasını daha yaxşı öyrənirdik. Bu ildən isə "Ortaq türk tarixi " dərsi keçiriləcək. Bu dərslə də ölkələrimizin tarixini daha yaxşı öyrənəcəyik. Ümumiyyətlə, bu dərslər milli kimliyimizi unutmamaq, tariximizi və coğrafiyamızı öyrənməklə türk ölkələri arasında əlaqələri genişləndirmək üçün gözəl vasitədir. Qarabağ haqqında Azərbaycan tarixi dərsliyində məlumatlar olsa da, "Qarabağ Tarixi" dərsi Qarabağın tarixini, mədəniyyətini, ərazisindəki tarixi abidələri daha yaxşı öyrənməyə xidmət edir. Şagirdlərimizin öyrənməsi vacib olan dərslərdən biri də "Qarabağ tarixi"dir.

**-Başına maraqlı hadisələr gəlməmiş olmaz...**

-3 ildir Pedaqoji fəaliyyətlə məşğulam. Bu dövrdə bir çox hadisələr başıma gəlib. Günlərcə havanın yağışlı və küləkli olduğundan işıqların yanmaması və küləyin sobanı yandırmağa imkan verməməsinə görə soyuqda qalmağım.

Bulaqdan su gətirərkən dəfələrlə qarlı palçıqlı yollarda yıxılmağım. Ancaq heç vaxt unutmayacağım bir hadisəni danışım. İşlədiyim kənd ucqar dağ kəndi olduğundan çoban itləri çox idi. Bəzən gündüz vaxtları da açıq olurdular.

Bir gün səhər tezdən məktəbə gedirəm. Özümdə gecikdiyimdən kəsə yolla getməyi düşündüm. Dar yolda bir də başımı qaldıranda təxminən 15-20 metr uzaqda çoban itini gördüm. Nə qabağa gedə bilirəm,nə də geri qayıda bilirəm. Tərslikdən yaxınlıqda adam da yoxdur. Hardasa yarım saat itlə "baxışmışıq". Nə it tərpənir nə mən. Bir qədər vaxt keçəndən sonra "nə olar, olar" deyib əlimə bir-iki daş alıb itə tərəf getdim. Mən itin yanından tez keçdiyim kimi, it də mənim yanımdan tez keçib qaçdı. Bundan sonra anladım ki, mənim itin dişləməyindən qorxduğum kimi it də mənim onu vurmağımdan qorxub dayanıb ordaca. Həmin ana qədər qorxsam da ondan sonra gülə-gülə getmişəm məktəbə.

### *Tarix və coğrafiyaya diqqət azalıb*

**-Bəzi ölkələrin dünya praktikasına baxıram. Ölkə ədəbiyyatı, dili, coğrafiyası və tarixinə tədris prosesində daha çox diqqət ayrılır. Hətta o şagirdin gələcək sahəsi olmasa da. Bizdəsə tarix dərsləri müəyyən anlamda digər ölkə ilə bağlı olmayan, xarici dilə və.s saat baxımdan uduzur.**

-Məktəbdə keçirilən bütün dərslər şagird üçün önəmlidi. Gələcəkdə işləyəcəyi sənətlə bağlı olmasa belə öyrəndikləri nə zamansa lazım olacaq.

Ancaq Tarix və Coğrafiya fənnləri insanın dünya görüşünün formalaşmasına böyük təsir göstərir. Hər hansı bir ölkələri gəzib görməsək də, həmin ölkələr haqqında məlumatımız olur. Digər fənnlərə nisbətən bu iki fənnə diqqət son zamanlar azalıb. Xüsusilə də coğrafiyaya. Həm məktəbdə dərs saatının az olması. Həm də qəbul imtahanında yalnız bir ixtisas qrupunda olması şagirdlərin marağını elə də çəkmir. Ümid edirəm ki, gələcək illərdə bununla bağlı hansısa tədbir görüləcək.

**-Ayrı-seçkilik qoymaq istəməzdim, amma kənd şagirdləri müəyyən qədər şəhər şagirdlərindən fərqlənir.**

- Kənd və şəhər uşaqları arasında çoxlu fərqlər var. Hər şeyin mərkəzində olan, istədiyi şeyi tez bir zamanda əldə edən və məlumat bolluğu içərisində olan şəhər uşağı ilə bir çox şeyləri vaxtında əldə edə bilməyən və təsərrüfat işlərində valideynlərinə kömək edən kənd uşağı arasında fərqlər çoxdu. Ən əsası həmin kənd uşaqları saf, təmiz və hər şeyə həvəsli olurlar. Həmin uşaqları təəccübləndirmək və sevindirmək də asan olur. İşlədiyim dövrdə dostlarla bir çox layihələr etdik və həmin uşaqları ehtiyacı olan kitab, çanta və s. əşyalarla sevindirdik.

**-Kənd əhalisi ilə aran necədir? Necə yola gedirsiniz?**

- İşlədiyim hər iki kənddə yerli sakinlərlə münasibətim həmişə yaxşı olub. İstər qonaq kimi, istərsə də müəllim kimi hörmətimi saxlayıblar və bu hörmət həmişə qarşılıqlı olub. Müəllimin işi dərs dediyi 45 dəqiqədən sonra başlayır. Şagirdlərimlə müəllimdən başqa çalışmışam bir dost və böyük qardaş olum.

Onlarla gəzintilərə getmişik. Elə vaxtlar olub şagirdim evdə valideynlərinə deyə bilmədiyini mənə deyib. Həll edə bildiyim problemlərini bacardığım qədər etmişəm. Ona görə də məktəbdən sonra da, tətil vaxtlarında da şagirdlərim zəng edir, mesaj yazır, hal əhval tuturlar.

**-Mədəniyyət, yaşam fərqləri bəzən müəllimlərdə dərs keçdiyi yerlərdə narahatlıq yaradır...**

- Hazırda işlədiyim Füzuli rayon Qazaxlar kəndi bir neçə əsr əvvəl biz tərəflərdən köçdüyünə görə elə ciddi mədəniyyət və yaşam fərqi yoxdur. Özümü heç cür yad hiss etmirəm.

Bu kimi fərqləri Yardımlıda işlədiyim zaman gördüm. Tez bir zamanda adaptasiya olduğumdan heç bir narahatçılıq olmadı. Əksinə talış mədəniyyətini daha yaxından öyrənmiş oldum. Talış dilini də qismən öyrəndim.

***P.S. Onunla müharibədən bir neçə gün öncə söhbətləşmişdik. Tale elə gətirdi ki, mən cəbhəyə getməli oldum və müsahibənin dərci gecikdi. Nə yaxşı ki, gecikdi...***

***Müsahibədə Qarabağı gəzmək istəyirəm dediyi, işğalına üzüldüyü vətən torpağı artıq azaddır!***

**Söhbətləşdi:**
**Emin Piri**

## FRANSA RUSİYAYA QARŞI



**Fransa Xarici İşlər Nazirliyi nəzdində Dövlət katibi Kleman Bon hesab edir ki, Rusiyaya qarşı tədbiq edilən sanksiyslar yetəri və deyil.**

**"Sanksiyalar qəbul edilib. Lakin açıq demək lazımdır ki, bu yetərincə deyil. Hesab edirəm ki, "Şimal axını - 2" boru kəmərinin tikintisi ilə bağlı məsələ müzakirə olunur. Hazırda tikinti Almaniya ərazisində aparıldığı üçün qərarı alman hökuməti verməlidir. Biz həmişə demişik ki, layihənin bu kotekstə həyata keçirilməsi şübhəlidi"- deyə Bon "France İnter" radiostansiyasının " Navalnının həbsi ilə bağlı əlavə tədbirlərin görüləcəyi" suallarını cavablandırarkən bildirib.**

**Rusiya XİN-i Navalnının işi ilə bağlı şəhrlər verən xarici siyasətçilərə beynəlxalq hüquq normalarına riayyət etməyi və öz ölkələrindəki problemlərin həlli ilə məşğul olmağı tövsiyyə edib. Xarici işlər naziri Sergey Lavrov qeyd edib ki, qərb siyasilərinin bəyənatları faktiki olaraq bir-birinin kopyalarıdı. Putinin sözçüsü Dmitri Peskov isə bəyan edib ki, Rusiya Navalnı ilə bağlı xaricdən gələn bəyənatlara qulaq asmaq fikirində deyil.**

**Avropa Parlamentinin deputatları ötən həftə keçirilən plenar sessiyada səs çoxluğu ilə Navalnının həbsi ilə bağlı qəbul etdiyi qətnamədə, Avropa İttifaqından təcili olaraq "Şimal axını - 2" layihəsinin tikintisinin qarşısının alınmasına çalışmağı tələb etmişdi.**

**Beləliklə Rusiyaya qarşı sanksiyaların gücləndirilməsi məsələsində Fransanın daha çox canfəşanlıq göstərməsi Rusiyanın nəzərindən qaçmır. Rusiya prezidenti Vladimir Putinin Türkiyə prezidenti Rəcəb Taib Ərdoğana sıcaq münasibət göstırməsidə yəqin ki, burdan qaynaqlanır.**

**Rüstəm Hacıyev**

Vətən müharibəsinin qaziləri

# Qoluna girən qəlpə ürəyindən çıxarıldı

**Yaşatmaq ifadəsinin fəlsəfi yozumuna yaxından bələd olanlar inanır ki, bir ömür yüzlərlə ömürdə yaşadıldığı kimi (buna qəhrəmanlar, şəhidlər qadirdi), bir ömürdə yüzlərlə ömür yaşatmaq da mümkündü (ömrü ölümdən qaytarmağa qadir olan təbiblər, loğmanlar, uzmanlar kimi). Əsgər ömrünə belə sayğının, ehtiramın yozumu, mahiyyəti Vətənə xidmətdi**

Vətən müharibəsində Vətən sevgisi - Vətənə sevgi hamını əsgərləşdirdi. Döyüşənlər komandirinin əmrini, döyüşdən iraqlar - uzaqlar ürəyinin hökmünü yerinə yetirirdi; döyüşlər başlayanda bu hökm əmr qüdrətində idi. Vətən müharibəsini ürəyinə köçürənlər bilir ki, döyüşənlərə mənəvi dəstək əsgərləşməkdi. Müharibə döyüşlərdi, döyüşlər yaralanma ehtimallarıdı; müharibədə yaralının müalicəsinə, sağalmasına, əməliyyatına cəfakeşlik də əsgərləşməkdi. Vətən müharibəsində ürək-damar uzmanı Anar Əmrah belə əsgrləşmişdi...

### *Vətən müharibəsində*

***yaralananlar da oldu. Döyüşçü ürəyini deşib keçən, deşib ürəyində qalan qəlpələri çıxartmağın mahiyyəti də ağır döyüşdü - cərrahın ölümlə döyüşüdü. Cərrahlar bu döyüşə borcödəmə deyirlər. Belə borcödəmə həm vətəndaşlıq borcu kimi, həm Vətən borcu kimi, həm də bəşəri borc kimi yerinə yetirilir. Bu, yaşatmaq mübarizəsidi (yox, mübarizəsi deyil, döyüşüdü!).***

Vətən müharibəsi başlayanda Silahlı Qüvvələrin Mərkəzi Klinik Hospitalıının rəhbərliyinə müraciətlə köməyini təklif edən, Vətən mühribəsi müddətində 100-ə qədər əməliyyat aparan, yəni 100-ə qədər hərbçimizi ölümdən geri döndərən ürək-damar uzmanı Anar Əmrahın yaşam fəlsəfəsi belədi: yaşatmaq, ölümə ölüm hökmü kimi cərrahiyyə əməliyyatını ömrün davamı et-mək. Müqəddəs niyyətlilər günümüzə (deməli, sabahlarımıza!) düşən mənəvi işıqdı. Dum-duru niyyətiylə dumduru ömür yaşayan uzman Anar Əmrah cərrahiyyə əməliyytından sonra heç zaman təəssüf yaşamayıb...

İndiyəcən apardığı əməliyatların mahiyyətini, çətinliyini, ağırlığını, bəzən mümkünsüzlüyün mümkünləşdirildiyini xatırlasaq, Tanrının mərhəmətiylə belə əməliyyatların sonluğuna - nəticəsinə Anar Əmrahlıq deyərdim. Son illərdə təbabətimizə, cərrahiyyəmizə bələd olanlar, bələd olanlara inananlar bu qənaətimə görə məni qətiyyən suçlamaz. Silahlı Qüvvələrin Mərkəzi Klinik Hospitalında əsgər Cahid İbişovun (güllə ürəyini deşmiş, ürəyin arxa divarında qalmışdı), mayor Kamran Həmidovun (qəlpə ürəyini deşib keçmiş, aorta damarını dağıtmış, ağ ciyərini zədələyərək orda qalmışdı), gizir Ramil Babaşovun, daha yüzə qədər yaralanmış hərbçimizin əməliyyatıdı zəmanətim. Əsgər Fuad Rəsulovun ürəyində aparılan əməliyyat da belə əməliyyatlardandı...

2016-cı ilin aprel döyüşləri başlayanda Fuad Rəsulov Azərbaycan İqtisad Universitetinin tələbəsi idi.

O qədər də uzaqda olmayan 2016-nın aprel ayının ovqatı hamımıızın yaddaşındadı. Tələbələr döyüşlərə can atırdı - torpaqlarımızın işğaldan azad edilməsi üçün döyüşmək istəyirdi. Hamısı zamanı qabaqlayıb hərbi xidmətə getməyə, döyüşən ordumuzun sırasında olmağa niyyətliydilər. Fuad Rəsulov da onların sırasında; yüksək vətənpərvərlik duyğusu olsa da tələbələrin istəyi yerinə yetirilmədi.



Ordumuzun yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan şəxsi heyəti düşmənin təxribatının qarşısını almağa, Ali Baş Komandanın əmri ilə döyüşləri davam etdirməyə, qələbə qazanmağa qadir olduğuna görə...

### *Aprel döyüşləri*

***çağırışçıların da, gənclərin də dünyaduyumunun "yolgöstərəni" oldu; yeniyet-mələr daha tez böyüməyə, çağırışçılar heç zaman unudulmayan, unudulmayacaq Bağanıs Ayrım, Meşəli, Qaradağlı, Xocalı faciələrini xatırlayıb da hərbi xidmətə tələsirdilər. Hamısı bilirdi ki, Lələtəpənin sağından-solundan keçən yollar Şuşaya aparacaq. Çağırışçılar əsgər kimi bu yollarla döyüşə-döyüşə Cıdır düzünə çatmaq əmri alanların sırasında olmağı arzulayırdı. Fuad da onlar kimi düşünürdü...***

Hərbi xidmətdəydilər...

Çağırışçı olanda torpaqlarımızın işğaldan azad edilməsini necə arzulayıırdılar! Bunun icra-çıları olacaqlarını düşünəndə şükranlıqla bir-birinə, hamısı komandirlərinə baxırdı; Ali Baş Komandanın döyüş əmrini daha dönməzliklə gözləyirdilər, o döyüşlərin iştirakçısı olmaq niyyətiylə, işğalın sonlanacağına inamla...

### *2020-ci il sentyabrın 27-də*

***düşmən bir neçə istiqamətdən müxtəlif növ silahlardan, ağır artilleriyadan istifadə etməklə təmas xəttindən ərazilərimizə hücum etdi. Ordumuzun bölmələri hücumun qarçısını qətiyyətlə aldı. Ali Baş Komandanın əmri ilə ordumuun əks-hücum əməliyyatı Vətən müharibəsi kimi davam edirildi. Ordumuzun şəxsi heyətinni döyüş əzmi, qələbə ruhu ilk döyüşlərdən ordunun gücünə, qüdrətinə çevrildi.***

Fuad Rəsulovun xidmət etdiyi bölük də döyüşlərə cəlb edildi...

Madagiz (Suqovuşan) döyüşləri başa çata-çatmaz onların bölüyünü Mərgüşəvana göndərdilər; Ağdərəyə hücum burdan başlayacaqdı...

"Ağdərə ətrafındaydıq. Hücum ərəfəsində komandirimiz bizə Ağdərənin 1992-ci il iyulun 4-də ermınisizləşdirildiyini, Gəncə qiyamından sonra ermənilərin Ağdərənin yenidən işğal etdiyini dedi. "Biz Ağdərəni işğaldan azad edəcəyik. Həmişəlik azad edəəcəyik. Bir də ora erməni ayağı dəyməyəcək, komandir!", - döyüşçülərdən biri belə dedi. Bu, hamımızın döyüş andımız oldu...", - əsgər Fuad Rəsulov aylar sonrası o günü belə xatırlayır...

***...Oktyabrın 21-i idi...***

***Düşmən ciddi müqavimət göstərirdi. Müqavimət göstərə-göstərə döyüşçülərimizin mövqelərini minaatanlardan atəşə də tuturdu. Atəş intensiveliyi zəif olsa da hücumun gedişinə təsir göstərirdi. Atəş bir qədər zəlifləyən kimi döyüşçülərimizə hücum əmri verildi. Atəş açaaça düşmənin mövqelərinə yaxınlaşmaqdaydılar. Qəflətən yaxınlıqlarına mərmilər düşdü...***

Mərmi qəlpələri əsgər Fuad Rüstəmovun ayaqlarını, sol qolunu yaraladı. Fuad özünü toparlayıb geri çəkilməyə başladı. Getdikcə gücü azalırdı. Əsgər Fuad Rəsulov Ağdama, ordan Ağcabədiyə təxliyə edildi. Ona ilkin yardım göstərildi...

...Ayaqlarının yaraları qaysaqlamağa başladı...

Baş ağrılarına, ürək nahiyyəsində ağrılara görə müayinəyə gedib. Müayinə edən həkim heyrətlə Fuada baxıb. Onu rentgenə göndərib...

Silahlı Qüvvələrin Mərkəzi Klinik Hospitalında aparılan nəzarət müayinəsi həkimin təxminini təsdiqlədi: əsgər Fuad Rəsulovun ürəyində qəlpə var. Sol qolundakı qəlpə aylar sonra ürəyinəcən çatıbmış, ürəyindəymiş. Fuad bundan xəbərsiz olub...

Təcili əməliyyat olunmalıydı Fuad.

Əməliyyatı Vətən müharibəsi dövründə apardığı əməliyyatların davamı kimi ürək-damar cərrahı Anar Əmrah apardı...

Döyüşçünün döyüş ərəfəsində düşündükləri ilə cərrahın (həm də ürək-damar cərrahının) da əməliyyatdan əvvəl düşüncələri arasında mətləb eyniliyi olur: Vətən, torpaq, qələbə...

"Az qala üç ay əsgərin damarlarında gəzişən qəlpə ürəyini deşmişdi, ürəyindəydi. Çox qalsa ölümlə də nəticələnə bilərdi. Təcili əməliyyat aparılmalıydı. Əməliyyatdan əvvəl əsgərlə söhbətləşmişdik. Döyüşdən, döyüşənlərdən, yaralananlardan, şəhidlərdən, qələbədən danışmışdıq. Ürəyindəki qəlpədən söz açmadım. "Yenidən xidmət edə biləcəksən, əsgər qardaşım" - dedim. İnandığım, inandırmaq istədiyim fikir Fuadın baxışlarına sərilmiş narahatlığı kürüdü...", - uzman cərrah Anar Əmrah Fuadla əməliyyatqabağı kəlmələşməsini belə xatırlayır...

***Bir də döyüşçü ömrünü düşünür cərrah; döyüşçü ömrünü düşünmək, döyüşçünün ömrünün yaxasından yapışmaqda olan ölümü öldürmək. Yəni Vətəni, torpağı, qələbəni düşünmək deməkdi. Bu, cərrahın (konkret olaraq Anar Əmrahın) yaşama (yaşatma) fəlsəfəsinin tərkib hissələrindəndir.***

"Ürək-damar cərrahı Anar Əmrah haqqında eşitmişdim. Anam onun loğmanlığına, uzmanlığına yaxşı bələdmiş. Anamın "Anar Əmrah ürəyindəki qəlpəni çıxardacaq, oğlum. Tanrının bizə lütfüdü ki, cərrahın Anar Əmrah oldu..." demişdi. " - Fuad belə dedi. Baxışlarını pərdələyən şükranlığı düşüncələrimin salavatı bildim: bu kəlmələr təkcə ana təsəllisi deyildi. təsəlli kimi səslənən gerçəklik, gerçəkliyi qabaqlayan ana duyumu olub", - dedim.

Fuadın ağrıları sovuşub.

**Azərbaycan respublikasının Prezidentinin sərəncamı ilə Vətən müharibəsində təltif edilənləri sırasında Fuad Rəsulov da var**

**Rəşid Faxralı**

## VƏTƏN SİZƏ OĞUL DEDİ

***XTQ giziri Qasımov Mirağa***



**XTQ giziri Qasımov Mirağa Hafiz oğlu 11.05.1998-ci ildə Cəlilabad rayonu Moranlı kəndində anadan olub. Mirağa Vətən müharibəsində igidliklə döyüşərək qəhrəmancasına Şəhid olub.**

**Gizir Mirağa Qasımov Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" medalları və "Qarabağ Ordeni" ilə təltif edilib.**

***Vətən müharibəsində igidliklə qəhrəmancasına şəhid olub***



**Heydərov Qadir Ədalət oğlu 11.05.1998-ci ildə Cəlilabad rayonu Əsədli kəndində anadan olub. Qadir Vətən müharibəsində igidliklə döyüşərək 30.10.2020-ci il tarixində qəhrəmancasına Şəhid olub.**

**Qadir Heydərov Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" və Cəbrayılın azad olunmasına görə medalları ilə təltif edilib.**

***MAXE Fətəliyev Rahib***



**MAXE Fətəliyev Rahib Pənah oğlu 10.07.1978-ci ildə Beyləqan rayonu Bolsulu kəndində anadan olub.**

**2016-cı ilin aprel döyüşləri iştirakçısı Rahib Vətən müharibəsində igidliklə döyüşərək 05.12.2020-ci il tarixində Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

**MAXE Rahib Fətəliyev Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda" medalı ilə təltif edilib.**

***Zəngilan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub***

**Gizir Şükürov Alim Davud oğlu 23.05.1998-ci ildə Cəlilabad rayonu Ağdaş kəndində anadan olub. Vətən müharibəsində igidliklə döyüşən Alim 07.11.2020-ci il tarixində Zəngilan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**



**Gizir Alim Şükürov Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda", "Söyüşdə fərqlənməyə görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilib.**

***Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub***



**MAXE Bədirov Murad Qismət oğlu 25.01.2001-ci ildə Cəlilabad rayonu Kazımabad kəndində anadan olub. Vətən müharibəsində igidliklə döyüşən Murad 29.10.2020-ci il tarixində Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

**MAXE Murad Bədirov Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda medalı ilə təltif edilib.**

***Oğlu doğulandan 10 gün sonra şəhid xəbəri gəldi***



**Vətən müharibəsində itkin düşən daha bir hərbçimizin şəhid olduğu müəyyənləşib.**

**1991-ci il təvəllüdlü baş leytenant Babayev Ramil Taqət oğlundan gedir. Kürdəmirin Şilyan kəndində anadan olan şəhid zabitimizin nəşi Murovdağ istiqamətində tapılıb. Nəşin Ramil Babayevə aid olması DNT analizi nəticəsində müəyyənləşib. Şəhidimiz bu gün Kürdəmirin Şəhidlər Xiyabanında torpağa tapşırılıb. Ailəsi sonuncu dəfə Ramillə sentyabrın 29-da əlaqə saxlaya bilib. Həmin tarixdən sonra zabitlə əlaqə saxlamaq mümkün olmayıb. O, Goronboyda N saylı hərbi hissənin kəşfiyyat bölüyündə xidmət edib. Baş leytenant Ramil Babayev Aprel döyüşlərinin də iştirakçısı olub.**

**Ailəli idi, iki yaşında bir qızı və on gün öncə dünyaya gələn bir oğlu var.**

## *Vətən Müharibəsi şəhidlərinin xatirəsi əbədiləşdirilib*



**Ağcabədi rayon İcra Hakimiyyəti başçısı cənab Rafil Hüseynovun sərəncamına əsasən sözügedən bölgədən olan bütün şəhidlərin xatirəsi əbədiləşdirilir. Onların adlarının şəhər və kəndlərin küçələrinə verilməsinə başlanılıb.**

**Bu günlərdə Ağcabədi rayon İcra Hakimiyyətinin başçısı cənab Rafil Hüseynov, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, Media nümayəndələri, şəhər sakinləri və şəhidlərin ailə üzvlərinin iştirakı ilə şəhər ərazisində yerləşən ayrı-ayrı küçələrdə advermə mərasimləri keçirilib. Vətən Müharibəsi şəhidləri Xəyal Həziyev, Mirəli Hüseynov, Məhəmməd Məmmədov və Həsən Süleymanovun adları küçələrə verilərək, xatirələri əbədiləşdirilib. Həmin küçələrdə şəhidlərin ad və tərcümeyi hallarını əks etdirən xatirə lövhələri vurulub. Advermə mərasimlərində Ağcabədi rayon İcra Hakimiyyətinin başçısı cənab Rafil Hüseynov, şəhidlərin ailə üzvləri, yaxınları çıxış edibər. Şəhidlərin adlarını daşıyan küçələrdə yerləşən lövhələrin önünə tər çiçək dəstələri qoyulub.**

**Ağcabədi şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi rayon sakinləri tərəfindən böyük rəğbət və minnətdarlıq hissi ilə qarşılanmışdır.**

**Qeyd edək ki, rayonda şəhidlərin xatirəsinin əbədiləşdirilməsi davam etdirilir.**

**Adil Misirli**

# ƏHƏDİN xoşbəxtliyi

**- Deyirlər, tək uşaqları aparmırlar, bəlkə maraqlanaq, müraciət edək?**

**- Ana, nə danışırsan? Vətən də təkdi. Başqa Vətənimizmi var? - dedi.**

**- Səndən başqa kimim var, ay oğul? Mən səninlə nəfəs alıram...**

**- Ana, mən də səninlə nəfəs alıram. Amma getməliyəm. Kimnən artığam? Orda ölənlər, itənlərin anası, atası, övladı yoxdumu? Belə gündə ana dizinə sığınım? Olmaz, ana, olmaz...**

**- Sənə bir şey olsa...**

Oğlu ilə xidmətə yola düşməzdən öncəki söhbətləşməsini xatırlayır Gülnaz xanım. "Sözümü kəsdi "Qismətimdə yaşamaq varsa, yaşayacam, yoxdursa, burda da nəsə ola bilər."- dedi və üzümdən öpdü.

**- Xocalı faciəsi olanda cəbhəyə getmək istəyirdi, 18 yaşı olmamışdı, aparmadılar. Hərbi xidmətdə də onu arxa cəbhədə saxlayırdılar, ailənin tək uşağı olduğu üçün. Özü gedirdi döyüşlərə.. .- kövrəlir Gülnaz ana.**

"Elə bilirdim onsuz yaşaya bilmərəm. Yaşadım amma.."

Əhəd Sərhəd qoşunlarında xidmət edir. O hərbi xidmətə gedəndə vəziyyət gərgin idi.

Valideynləri tez-tez gedir Əhədin yanına. Oğlu haqqında döyüş yoldaşlarından həmişə tərif eşidir.

Komandiri atasına deyir: Necə övlad böyütmüsüz? Hamının sevimlisidir. O qədər mərddi, qorxmazdı ki! Biz onun tək uşaq olduğunu bilirdik. Onu arxa cəbhədə saxlamaq istəyirdik. Soruşuram:Kim Veysəlliyə getmək istəyir? "Mən" deyir. Böyük Bəhmənliyə kim gedər? "Mən" deir. Horadizə kim getmək istəyir - deyirəm, yenə "mən" deyir. Əslində bilir ki, on göndərmək istəmirəm. Amma bizə Əhəd kimi oğullar lazımdı".

Əhəd ən gərgin nöqtələrə birinci getmək istəyirdi və gedirdi.

Yerli əhalinin əzab-əziyyətini görürdü.

Sərhədçi yoldaşlarından olan Əlibalanın xatırladıqları: 19 yaşı vardı, amma ağsaqqalımız idi elə bil. Həmşə öndəydi. Hamıya kömək etməyə hazır idi. Qadınları, uşaqları, yaşlıları döyüş bölgəsindən çıxarmaq lazım gəlirdi. Araz çayından keçməli olurdular. Əhəd uşaqları iki - iki, bəzən üç - üç keçirirdi. Bir - neçə dəfə qayıdırdı.

1993- cü ildə Fizuli, Cəbrayıl, Qubadlı uğrunda gedən döyüşlərdə iştirak edib.

Sərhədçi idi Əhəd. İmkanı olsa, sərhədlərimizi qorumaq üçün sərhəd boyu sərərdi canını.. Artıq düşmən də bunu bilirdi. Əhəd onlar üçün keçilməz sərhəd olmuşdu. Onu snayperlə başından vurdular.

Əhəd Firuz oğlu İsgəndərov 1974 - cü il iyulun 18 - də Bakıda doğulub. Yasamal rayonundakı 31 nömrəli tam orta məktəbdə təhsil alıb. Onu həmişə



anırlar məktəbdə. Müəllimlərinin bir çoxu dünyasını dəyişsə də, onun xatirəsi yaşayır. Əhəd oxuyanda pioner baş dəstə rəhbəri olan Nazilə müəllimə indi də onu sevgiylə xatırlayır: O qədər mədəni, intizamlı, nümunəvi idi ki. Məktəb tədbirlərində iştirak etməyi sevərdi. Çox məsuliyyətli idi. Heç unutmuram, Yeni ilə hazırlaşırdıq. İbtidai siniflər üçün Şaxta baba axtarırdım, Əhədi seçdim. Həvəslə razılaşdı. Geyimlərini özü hazırladı. Anası da bizə kömək edirdi. Elə gözəl Şaxta papağı hazırlamışdı ki. Bir - neçə il Şaxta Babamız oldu. İcazə verməsəm də, özü əlavə hədiyyələr alırdı. Uşaqlara hədiyyə verəndə özü onlardan çox sevinirdi. Sevinc doluydu. Hərbi Xidmətə gedəndə də məktəbə gəlir, müəllimləri ilə görüşür. Bəlkə bir daha görüşməyəcəklərini hiss edib, çox sevdiyi məktəbini, müəllimlərini görmək istəyib?

Anası deyir ki, müəllimlər də onu çox istəyirdi. İllərdi müəllimlər mənimlə əlaqə saxlayır, xəbərləşir, xatirə tədbirləri keçirirlər. İndi işləyənlər Əhəd oxuyanda işləmirdi. Amma xatirəsini əziz tuturlar. Məktəbin qarşısından keçəndə, müəllimləri görəndə rahatlıq tapıram...

Gülnaz xanımın ürək dolu təşəkkür sözlərindən narahat oldum əslində. Ürəyim sızladı: Ay gözəl qadın, gözünün ağı - qarası tək övladını min bir əziyyətlə böyüdən zəhmətkeş ana, biz sənə borcluyuq. Əhədə, əhədlərə borcluyuq - dedim.

29 0ktyabr 1993-cü ildə Horadizdə şəhid olur.

Ana 28 - də gecə yata bilmir. Səhər tezdən cəbhə bölgəsinə yola düşür. Orda Ən cəsur, ən qorxmaz bir gəncin snayperlə vurulduğunu eşidir. Oğlu olduğunu bilmədən ağlayır ana bir gənc igidə. Əhədin komandirini tapır ata - ana. Ancaq komandir Əhədin ölüm xəbərini deyə bilmir: Əhəd yaralanıb, Bakıya hospitala aparıblar - deyir.

Ata - ana tələsik geri dönür...

***"Öğlumu çox hörmətlə yola saldılar. Onu Şəhidlər Xiyabanında dəfn etmək istədilər. Razılaşmadım. Özüm Novxanılıyam. Bütün qohumlarım ordadı."***

Gülnaz ana bir igid Şəhid anası olması ilə təsəlli tapır illərdi. Sual etmək istəyirəm: "Şəhid ailəsi kimi sizə nə kömək..."

"Kamalə müəllimə, mən Səhid anasıyam deyə heç nə üçün müraciət etməmişəm. Etmərəm də. Bu oğlumun ruhuna hörmətsizlik hesab edirəm. Arzusu idi Vətəni azad görmək. Vətən uğruna Şəhid olmaq. Elə bilirəm ruhu narahat olar. Hər qələbə xəbərində onun yanına gedirəm, bu xəbəri ona deyirəm. Bilirəm ki, sevinir." - deyir.

Ana əmindi ki, İndi Novxanıda Şəhidlər Xiyabanında sevinir, rahatlıq tapır Birinci Qarabağ savaşının şəhidləri kimi Əhədin də ruhu.

Əhəd başqalarının sevincindən xoşbəxt olurdu. Bütün dünyanı sevinclə qucaqlamaq istəyirdi. İndi Qələbə sevincindən xoşbəxtdi.

***P. S. Gülnaz xanım isə Sovetskinin köhnə məhləsində kiçik, kasıb mənzilində yaşayır böyük ürəyi ilə.***

**Kamalə Abiyeva**



Şəfa Vəli

# Bu idi "çevrilmə"...

**Bütün məğrurluqlarımın ilki məğlubiyyətlərim oldu, yenildiyim hər savaşdan öyrəndim qalibiyyəti... Bütün ürəklərdə yer aradığım zamanlar da oldu, bütün gözlərdən küsdüyüm də... Küsmədiyim, incimədiyim təkcə sözlər oldu... Sözlər... Yadımdadı, Aydan Abdullayevanın sevdiyi o şeirdə də küskünlüklərim vardı:**

***Təkcə sən bil... O bildiyin***
***Yaman ağrıtdı bu qızı...***
***Hamının atdığı yerdə***
***Təkcə söz tutdu bu qızı...***

Biz sözü ürəyimizdə böyütdük, söz bizi ovuclarının içində kövrəltdi. Və yazdıq özümüzü...

Söz - Emin Pirinin "gizlətdiyi" Eminin də özündən böyük olan qorxularının yenilməyidir. Nağıl kimi olur günlərimizin axarı, biz o nağılın obrazları arasında yer dəyişirik. Vaxtilə Elçin Aslangil saatlarla mənə "çevrilmə" hadisəsindən danışmışdı, mat-mat dayanıb üzünə baxmışdım. Elçinə görə anlamamışdım bəlkə, amma, özlüyümdə çıxardığım məntiqi nəticə bu idi: biz həyat adlı nağılın şahzadəsiyik, şahıyıq, nökəriyik, Zümrüd quşu, hətta, küpəgirən qarısıyıq... Bu idi "çevrilmə"...

Emin Pirinin öz dünyasının "şah oğlu" olduğu bir vaxtın şeirini oxudum bir gün:

***Gəl,***
***döy qapımı...***
***yolun uzaqdı bilirəm,***
***əziyyət çəkmə,***
***sizə gətirrəm***
***qapımı***
***döy,***
***ürəyin döyünən qədər.***

Burda şairin-şah oğlunun itirmək qorxusu var. Qəfildən yox, bilə-bilə əllərindən salıb itirmək qorxusu. Barmaqlarıyla bərk-bərk tutduğu ümidləri gözlərində qoruyub saxlaya bilmir. Bacarmır. Şah oğulları məhdudiyyətləri, ehtiyacları, sonuncu yaşam bağının elə ovcundakı ümid olduğunu bilmir axı... Onlar bir əmr edir, Yeddiqardaş dağlarından axan çayın suyu Qızqaytaran bulağın gölməçəsinə qarışır. Ümidlərin qədrini bilməyəcəyindən qorxur, gözünü yumub ovcunu açmaq istəyir, son anda öz hökmünə arxasını söykəyir: "Sizə gətirrəm qapımı..."

Birdən peşman olur etmədiklərinə... Etdikləriylə qürur duyan Emin Pirinin etmədikləri kirpiklərindən asılır... Yanağından aşağı sallanan hər göz yaşı cəsarətsizliyinin edam etdiyi xoşbəxtliklərdir... Və deyir:

***Yaşayıb güldürmədim***
***səni doyunca.***
***qoy,***
***ölüm...***
***doyunca ağladım səni.***

Boyundan böyük qorxusu peşmanlığının qarşısında yox olurkən yadına verəcəyi can borcu düşür. Ona verilən əmanət ömrün istəkləriylə sürüyüb yaşamından keçirdiyi günlərə heyfi gəlir. Şah oğlu da olsa əcəl qarşısındakı acizliyini dərk edir. Bu dəfə də Tanrıya üz tutur:

***Tanrım,***
***sənin də yanında***
***yalançı oldum,***
***göndərə bilmədim əmanətini.***
***sənə də can borcum qalıb,***
***nisyə dəftərinə yazarsan məni.***

Daha bir şeirində Emin Piri həyat-nağılın cadugəridir. Bütün cadularını "eşq" adlandıraraq göyərçinlərin ayağına bağlamaq istəyir... Göyərçinlər sülh quşudur axı, qırmızı ayaqlarını eşq adlı günaha batırmaq istəmirlər. Ümid qalır hər kəsin eşqini anıb ağladığı payız yarpaqlarına... Cadugər ağac dilində danışır:

***Payız...***
***Xəzan pıçıldayır***
***ağacın qulaqlarına:***
***"Gözlə məni yazacan".***
***Sən də gözlə məni,***
***bir başqa qadından doyanacan...***

Və birdən yadına düşür ki, nağılının yuxu hissəsini hələ yaşamayıb.

Qayıdıb qərib aşiq donuna düşür. Gözlərini bərk-bərk yumub yuxusuna çağırır butasını. Yuxusu ərşə çəkilir... Qapıya baxır... Baxır... Özündən uydurur döyülən qapının "tıq-tıq" səsini:

***Ölçüləri kiçildilmiş xəritədə***
***şəhərlərimiz əllərindən***
***daha yaxındı mənə.***
***Dayan...***
***Baxım görüm döyən kimdi***
***ürəyim yaman döyünür.***
***Xoş gəlir***
***bu gələn***
***sənsizliyə oxşayır...***
***Sənə demişdim də...***
***Sənsizlik***
***"Sən" "Siz" olanda başlayır...***

Bezir nağılından Emin... Nağılların sonundakı "hər kəs murada yetdi" sözlərini ha gözləyir, gəlmir axı. İnkar edir nağılını və qayıdıb olur Xəzər sahilinin özündən küsmüş şairi... Başlayır xatirələrini Xəzriyə söyləməyə. Eşidib ki, küləklər sevdalısının səsini pıçıldaya bilir qız saçlarına:

***Hələ,***
***məktəb illəri...***
***kimya dərsində***
***quruyardı boğazım***
***baxışlarım tutanda***
***çəhrayı dodaqlarını.***
***Əllərindən***
***bir ovuc su istəyən***
***ürəyimi oxuyardın.***
***Və...***
***Lövhəyə iri hərflərlə yazardın:***
***H2O...***

**Nahaq dünyanın haqq səsidir şeirlər... Vardır, əlbət, bir bildiyi Emin Pirini şair yaradanın... Biz oxuyaq, düşünək, qorxaq, qəhərlənək deyə yazır Emin Piri. Təki yazsın, sözlə qərib olsa da, sözdən qəribə düşməsin...**

# "Məni candan usandırdı" - Artan intiharlar və səbəblər

**Bəşər tarixində aktual problem olan intihar hadisələri son bir ildə daha da artıb-çoxalıb. Elə bu səbəbdəndir ki, Dünya Psixiatriya Assosiasiyası XXI əsri "depressiya və intiharlar əsri" adlandırıb.**

## *İntihar nədir, üsulları hansılardı?*

Suisid latın sözü olub "sui" - özünü, "seadere" - öldürmək deməkdir. Suisid (intihar) bir qayda olaraq şüur yerindəykən özünü öldürməyə deyilir. Suisid (intihar) ümidsizlikdən, etiraz əlaməti kimi, şəxsi şərəf hissinin qorunması naminə, ağlın qarışması nəticəsində, ağrıya dözməmək üzündən və ya qisasdan qorxmaq üzündən baş verir. Statistikalara görə, dünyada hər 2 saniyədə bir insan intihara cəhd edir və hər 20 saniyədə bir insan intiharı gerçəkləşdirir. Dünyanın müxtəlif ölkələrində keçirilən sorğulara əsasən yeniyetmələr və gənclərin 80%-i periodik olaraq intihar haqqında fikirləşirlər. Bir sözlə, intihar, insanın öz istəyi ilə yaşamına son verməsidir.

***Fransız psixoloqu Emil Dürkheym intihar hallarının artması ilə bağlı məsələlərə aydınlıq gətirir, bunun müxtəlif komponentlərini müəyyənləşdirib. Məsələ bundadır ki, onun da təcrübələri daha çox intihar hallarının baş verdiyi Avropa ölkələrində, xüsusilə, Macarıstanda və Skandinaviya ölkələrində aparılıb. Litvada hər yüz min nəfərdən 45-i, Rusiyada 40-ı, Qazaxıstanda 35-i, Macarıstanda 30-u, Latviya və Sloveniyada 28-i, Ukraynada isə 25-i intihar edərək, həyatlarına son verir. Zəhər içmək, odlu silahla özünə qəsd etmək və asmaq, yüksək mərtəbəli binadan özünü yerə tullamaq ən geniş yayılan intihar üsullarıdır.***

## *İntiharların səbəbi nədir?*

Mütəxəssislərin fikrincə, İntihar edən insanın keçmişi, uşaqlıq illəri araşdırıldığında çox problemin ordan qaynaqlandığı ortaya çıxır. Ata-anasız böyüyən uşaqlar, anasız böyüyən uşaqlar, sevgi qıtlığı çəkən uşaqlar, atasız böyüyən uşaqlar, güvən hissi çox zəif olan uşaqlarda intihar etmə riski daha yüksəkdir. Və yeniyetməlik dövrünə çatdığında bədənsəl və ruhsal dəyişikliklərin baş verdiyi bir mərhələdə ailənin ona qarşı yalnış davranışları intiharı alovlandırır. Məsələn həkim psixiatr Orxan Fərəcli mediaya açıqlamasında bildiribdir ki, intiharların həm psixoloji, həm sosioloji, həm də bioloji səbəbləri var: " Bioloji səbəblər bundan ibarətdir ki, insanın beyində serotenin maddəsinin azalması nəticəsində depressiv əlamətlər ortaya çıxır və bu da intiharı qaçılmaz edir Psixoloji səbəb ondan ibarətdir ki, bunlar "verter effekti"nin təsiridir. Hər gün verilən intihar xəbərləri öz təsirini göstərir və bir növ intiharlar adiləşir. Kişilərin intihara daha çox meylli olmağının səbəbi isə onların daha çox sosial problemlərinin olmasıdır. Maddi təminatın aşağı olması, ailədə özünü əksilmiş hiss etməsi intihar səbəblərindən biri ola bilər".

***Tibbi ekspert Adil Qeybullanın da fikrincə ölkədə sosial durumun ağır olması əhalini çıxılmaz vəziyyətə salır: "İnsan həyatda özünü reallaşdıra, faydalılıq əmsalını cəmiyyətə çatdıra bilməyəndə bir növ yükə çevrildiyini düşünür. Sonda intihar yolunu üstün tutur. Gənclər, əsasən məişət, sevgi zəminində baş verən konfliktlər nəticəsində intihara qərar verirlər".***



Amma psixoloq Ramil Nəcəfli hesab edir ki, hazırda intiharların səbəbi təkcə-sosial iqtisadi problemlərdən qaynaqlanmır:"İnsanlar həyata köklənə bilmirlər, çarəsizlik və mənasızlıq duyğuları adamların çoxuna hakim kəsilib. Baxırsan ki, intihar edənlərin əksəriyyəti normal, sakit, həyatda sevilən, qanacaqlı və digər müsbət keyfiyyətləri ilə seçilənlərdir. Hətta bir çoxlarının işi-gücü, pulu da var, lakin yenə də intihar edir. Normal halda insan kəskin şəkildə melanxolik düşüncədə olanda, ümidsizlik, inamsızlıq hiss edəndə, həyatın mənasızlığını fikirləşəndə, adamlara qarşı duyduğu inam və etibarını tam itirəndə intihara meyl edir, özünə qəsd edir".

Hər halda mütəxəssislərin fikirləri yüzlərlə intihar hadisəsinin araşdırılmasına görə verilən son qərardır. Hər bir mütəxəssis öz nəzəri təcrübəsinə dayanaraq daha çox rastlaşdığı durumları analiz edib qərar verir.

## *Azərbaycanda intiharlar*

***Son zamanlar bütün dünyada olmaqla Azərbaycanda da intihar hadisələri intensiv xarakter alıb. Yaşı cavanlaşmış intiharlar çoxluğu hər kəsdə təəssüf hiss doğurur.***

Araşdırmamıza görə, Azərbaycanda 2019-cu il ərzində 585, 2020-ci ilin birinci yarım ili ərzində 292 intihar hadisəsi qeydə alınıb. Ötən illərdə eşitməyə adət etdiyimiz intihar səbəblərinin çoxunda bu kimi xəbərlərə daha tez-tez rastlaşdıq. "Gənc qız atıldığını bilib özünə qəsd etdi" "Universitetə girə bilməyən abutruyent çıxış yolun intiharda gördü", "İşin itirən gənc oğlan özünü asaraq intihar etdi", "Ailəsinə baxa bilməyən ata özünü yandırdı",

İntiharlar yeni ildən başlayaraq geniş vüsət almaqda davam edir. Yalnızca ötən 2 ay ərzində təxminən 16 intihar hadisəsi baş verib.

Onların içərisində icra hakimiyyətinin işçisindən tutmuş, hərbi qulluqçular, evdar qadınlar, müəllimə, işsiz kişilər var və çox təəssüf ki, onların çoxu 50 dən aşağa yaş qrupuna aiddirlər. Hətta Bakıda 4 və 2 yaşlı oğlanlarını yaşadıqları evin eyvanından yerə atan və onların ardınca isə özü də tullayan evdar qadının, Salyan rayonun Babazənan kənd sakini, Məzahim Qurbanovun qızı Rəvanə Qurbanovanı odlu silahla atəş açaraq qətlə yetirib, daha sonra özünü də odlu silahla öldürməsi bu ilin ən qandondurcu intiharları hesab olunur.

Ötən gün baş vermiş intihar hadisəsi isə hər kəsi ikiqat məyus etdi:

DİN xüsusi təyinatlı dəstəsinin komandiri, 1989-cu il təvəllüdlü kapitan Məmmədov Alim Nazim oğlu noyabrın 30-da Quba rayonunda ürəyindən tapança ilə atəş açaraq özünü öldürüb.

***Məlumata görə, A.Məmmədov evli olsa da, 10 ilə yaxındır ki, övladı olmurmuş. Yanvarın 28-də ilk övladı dünyaya gəlib. A. Məmmədovun cənazəsi bu gün Qubadan Sumqayıta gətirilərək dəfn edilib. Qeyd edək ki, XTD üzvü Alim Məmmədov Vətən Müharibəsində iştirak edərək qəhrəmancasına döyüşüb. Bundan əlavə məlumata görə, hələ ilin əvvəlində - yanvar ayında iki hərbiçimiz: Vüsal Musayev və Yunis Mənsurov müharibədə aldıqları psixoloji sarsıntılardan təsirlənərək intihar etdilər. Bir sözlə, yeni ilin gəlişi cəmiyyəti ağrıdacaq intiharları özü ilə gətirdi.***

Cəmiyyətimizin fərdi bir üzvü olaraq hesab edirəm ki, Azərbaycanda intiharların artmasında məmur özbaşnalığının da rolu var. Son 2 aya yaxındır, Qaradağ rayonunda 18 şəhidin qəbirinin uyğunsuz yerdə dəfn edilməsi, şəhid yaxınlarının etirazı, problemə əlaqədar təşkilat və məsul şəxslərin laqeyd münasibəti nəinki şəhidlərin yaxınlarında, eləcə də cəmiyyətdə bir depresiya havası yaratdı. Müharibənin yenicə bitdiyi bir ölkədə belə həssas mövzuların müzakirəsi heç də xoşa gələn deyil. Nə psixoloji cəhətdən, nə də strateji cəhətdən...

## *Dində intihar*

Zənnimizcə, həyatın mürəkkəb dönəmlərdən keçdiyini, gələcəyə gedən yolun heç də hamar olmadığını düşünən normal insanlar baş verən çatışmazlıq və çətinliklər zamanı depressiyaya düşməyə də bilərlər. Məsələn düşdüyün ağır durumdan çıxış yolu taparaq çıxmaq və durumla razılaşmaq əsas variant olmalıdır. Tutaq ki, tamamilə müflis olmuş imkanlı bir şəxs yenidən həyata sarılaraq itirdiklərini geri qaytarmalı, yaxudda, düşdüyü durumla razılaşaraq adi və sadə həyatına davam etməlidir.

***Dindarların fikrincə, çətinliklərə sinə gərmək, iztiraba, kədərə səbir etmək, şərait nə qədər ağır olsa da, Allaha inamı itirməmək müsəlmanın xarakter və prinsipi olmalıdır. Üstəlik, bu yolda göstərilən səbri, aparılan mübarizəni Allah qatında böyük mükafatlar gözləyir. Allah-Təala başımıza gələn bəla və müsibətlərin, problemlərin imtahan olduğunu dəfələrlə xatırladır və insanları səbrə, mətanətə səsləyir: "Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can (övlad) və məhsul qıtlığı ilə imtahan edərik. (Ya Rəsulum! Belə imtahanlara) səbir edən şəxslərə müjdə ver!"***

Mütəxəssisləronu da qeyd edirlər ki, bəlkə də elə bu səbəbdən əksər islam ölkələrində intiharın sayı ümumi statiskalara nəzərən çox aşağıdır.

Peyğəmbərimiz də hədislərində intiharı qadağan edir. Bu hədislərdə intiharın bağışlanmaz dərəcədə böyük günah olması həqiqəti çatdırılır. İnsan hansı üsulla intihar edirsə, Cəhənnəmdə sonsuzadək həmin üsulla cəzalandırılır. Əbu Hüreyrə (r.a.) Allah Rəsulunun (s.a.s.) belə buyurduğunu nəql edir: "Kim özünü dağdan atıb intihar edərsə, Cəhənnəmlik olar. Orada əbədi olaraq özünü dağdan atmaqla cəzalandırılar. Kim zəhər içib intihar edərsə, Cəhənnəm odunun içində əlində zəhər tutub onu əbədi içər. Kim də özünə bir dəmir (bıçaq, qılınc) saplamaqla intihar edərsə, Cəhənnəmdə əbədi olaraq o dəmiri qarnına soxar".

Yəqin ki, bu ayələr vasitəsilə insanları qorxudaraq intihardan uzaqdırılaşması nəzərdə tutulmuşdu. Öz dininə sadiq olanlar və inamı böyük olanlar mütləq bir xilas yolu tapacaqlarına əminik!

**Allah Azərbaycan xalqına səbr versin! Allah Azərbaycan xalqının təhlükəli imtahanlardan qorusun! Gözəl məmləkətimin gözəl insanları, xahiş edirəm, intiharı düşünməyin!Ölməyin!**

**Əntiqə Rəşid**

# Daşnaksütyun partiyasının edəcəyi bir iş yoxdur - Ermənistanın baş nazirinin 1923-cü il məruzəsi

**(əvvəli ötən sayımızda)**

**4. 1915-c ilin ikinci yarısı və 1916-ci il bizim üçün yas dövrü oldu.**

Van, Eleşkirt, Basen mühacirləri, qırğından qurtula bilmiş adamların hamısı, on minlərlə, yüz minlərlə adam gəlib Rusiyanın erməni qəzalarına doluşdular. Ac, çılpaq, xəstə və qorxu içində olan insanlar kəndlərimizə və şəhərlərimizə doldu. Bu ac kütlə özü yeməyə çörək tapmayan bir ölkəyə gəlmişdilər. Gücsüz, xəstə, dərmansız qaçqınlar ortada qalmışdı. Şirak və Ararat vadiləri sanki bir xəstəxananı xatırladırdı. Buralarda minlərlə erməni bizim gözlərimiz önündə aclıqdan və xəstəlikdən məhv olub gedirdilər.

Hər iki halda biz də nəticələr ilə məqsəd və niyyətləri qarışdırmaqda idik.

Rusların xəyanətinin sübutlarını axtarır və əlbəttə tapırdıq da. Ki, altı ay əvvəl də rusların xoşniyyətli yaxınlaşmaqlarının dəqiq sübutlarını eynən bu şəkildə axtarmış və tapmışdıq.

***Bədbəxt taledən şikayət etmək və fəlakətlərimizin səbəblərini özümüzdən kənarda axtarmaq acınacaqlı bir haldır. Bu, bizim milli psixologiyamızın xarakterik özəlliyidir və Daşnaksütyun Partiyası da buna qaça bilməmişdir.***

***Rusların bizə əclafcasına davrandığı inancında sanki bir təsəlli var idi (sonra növbə fransızlara, amerikanlara, ingilislərə, gürcülərə, bolşeviklərə, bir sözlə bütün dünyaya gələcəkdi).***

Xüsusilə erməni milli şuralarının idarəçiliyə qoşulması xüsusilə qarışıq və çətin bir mövzu idi. Vacib mərkəzlərdə milli şuralar və bu arada erməni milli şuraları da quruldu.

Tiflisdə Cənubi Qafqaz komissarlığı ilə İşçi, Əsgər və Kənd Sovetləri Cənubi Qafqaz Mərkəzi quruldu. Bunlar mərkəzi idarəçiliyin bir-birindən azad olan iki quruluşu idi və dövlət qurumları yaradılana qədər bölgəni idarə etməli idilər.

"Sovetlər mərkəzi" il sonuna doğru səlahiyyətlərini itirdi və siyasi səhnədən uzaqlaşdı. Buna paralel olaraq Cənubi Qafqaz Komissarlığı gücləndi və bütün Cənubi Qafqazın höküməti halına gəldi.

**6. Daha sonra Seymdə və Cənubi Qafqaz hökümətində olduğu kimi "Komissarlıq" da bir koalisiya idi.**

Biz bu dəyərli insan həyatlarını xilas etmək mövzusunda aciz idik. Hirs və qorxu içində vurnuxan bizlər günahkar axtarırdıq və bu günahkarı o dəqiqə "Rus hököməti ilə onun əclaf siyasəti" olaraq qəbul etdik.

***Siyasi baxımdan yetişməmiş və qeyri-sabit insanların qarışıqlığında yerdən-yerə sovurlmaqda idik. Rus hökümətinə olan dünənki inamımız necə kor-koranə idisə, bugünkü mühakimələrimiz də kor-koranə və bünövrəsiz idi.***

Rusların qəsdən ağır davrandığı, qərarsızlıq sərgilədiyi, yerli ermənilərə zülm vermək üçün türklərə səbəb və imkan təmin etdiyi deyilirdi. Guya ruslar Ermənistanı boşaltmaq və irəlidə oraya qazaxları yerləşdirmək üçün belə davranmışdılar. Kont Lobanov-Rostovskinin hər kəsin bildiyi "ermənilərsiz Ermənistan" proyekti gerçəkləşdirilirmiş.

Yalnız xalq yox, partiyamız və ağlı başından olan yoldaşlarımızın çoxusu da belə düşünürdülər.

***Biz rus hökümətinin izlədiyi xətti açıqlamaq üçün mütləq bir ermənisiz Ermənistan proyektinin vacib olmadığını, onun planlarında Türkiyə ermənilərinin müdafiəsini hər nə bahasına olursa olsun öhdəsinə götürmək üçün bir xüsusiyyətin yer almadığımnı anlamaq istəmirdik. Belə bir plan əlbəttə ki yox idi. Biz sadəcə öz istəklərimizi rus hökümətinə də xas edərək onu xəyanətlə günahlandırmaqda idik.***

Təbii ki bizim könüllü dəstələr Vanla Muşu ələ keçirməyə çalışırdılar. Oraya erməniləri xilas etmək üçün gedirdilər. Lakin Rusiya hərbi qüvvələri erməni könüllülərdən ibarət deyildi və fərqli məqsədləri vardı. Onların bizə xəyanət kimi görünən yavaşlığı və qərarsızlıq rus komandanlığına məxsus davranışla, ya da bizim tərəfimizdən bilinməyən şərtlərlə əlaqələndirilə bilər.

Bu hadisə həddən artıq orijinal və qəribə olduğu üçün xüsusi olaraq qeyd olunmalıdır. Siyasi bir partiya olaraq biz məsələmizin rusları maraqlandırmadığını və onların lazım olan zaman bizim cəsədlərimizi çeynəyərək keçib gedə biləcəklərini unutmuşduq.

***Bunu anlamadığımızı, bilmədiyimizi söyləyə bilmərəm. Əlbəttə bilirdik. Fəqət bildiklərimizi unudur və çox vaxt safcasına müharibənin erməni məsələsi ucbatından başladıldığını zənn edirdik. Ruslar hücuma keçən zaman onların erməniləri xilas etməyə getdiklərinə, geri çəkiləndə isə bizi kəsmək üçün Türkiyəyə şərait yaratdığına inanırdıq.***




Sanki saf və uzaqgörən olmamağımız bir qəhrəmanlıq idi və nəticədə elə bir hala gəldik ki, istəyən hər kəs bizi asanlıqla aldatdı, xəyanət etdi və başqalarının kəsməyinə imkan verdi.

**5. 1917-ci ilin fevral ayında Rus inqilabı başladı. Heç gözləmədiyimiz şəkildə önümüzdə yeni imkanlar yarandı.**

Rusiyada demokratik bir sistem qurulmaqda idi. Gündəmdə vacib sosial mövzular (torpaqlar) vardı. Demokratlar və sosialistlər olaraq biz bu yeni quruluşu coşğuyla qarşıladıq. Eyni zamanda milli bir siaysi partiya olaraq bu sistemin səlahiyyətlərinin mərkəzdən təhvil alınması, bölgələrin və xalqların muxtariyyəti mövzularına kilidləndik.

Çətin bir iş başladıldı.

Köhnə dövlət aparatının dəyişdirilməsi, yeni sistemin yerli bölmələrinin qurulması lazım idi. İnqilabın ilk mərhələsini yaşayan mərkəzi hökümət bu mövzu ilə maraqlanma halında deyildi. Bu mövzu bütünlüklə yerli kadrlara əmanət edildi. Sosial qurumlara, məsələn, siyası partiyalara, həmkarlar ittifaqlarına, milli hökümətlər vəzifə verildi (daha doğrusu onlar bu vəzifələri özləri mənimsədilər). Çoxlu millətlərin yaşadığı Cənubi Qafqazda bu millətlərin idarəçiliyə qoşulması...

Bu koalisiya ad və forma etibarilə partiyaları, öz etibarıyla isə millətləri təmsil edirdi. Başlıca partiyalar bunlar idi:

***"Menşevik fraaksiyası", "Sosial demokratlar", Müsavat" və "Erməni İnqilabçı Partiyası Daşnaksütyun. Bunlar bölgənin üç əsas xalqını - gürcü, Azərbaycan tatarları (Azərbaycan türkləri) və erməniləri - təmsil edirdi.***

Komissarlıqda və daha sonra da Seymdə həm də hökümətin hakim mövqe, yönləndirici rol gürcü menşeviklərindəydi.

Niyə?

Budur, bəzi səbəblər.

Birincisi Komissarlıq öz səlahiyyətlərini Sankt-Peterburqdakı Müvəqqəti hökümətdən, daha doğrusu Dövlət Duması çevrələrindən təhvil almışdı. Dumada gürcü millət vəkilləri Rusiya Sosial Demokrat Partiyası kimi güclü bir təşkilata söykənərək keçmişdən bəri vacib bir mövqe əldə etmiş, təsir qazanmış və əlaqələr qurmuşdu. Cənubi Qafqazda bir "Komissarlıq" qurulanda ilk əvvəl Dumadakı varlıqları gözə çarpmayan ermənilərə, ya da tatarlara deyil, təbii olaraq gürcülərə verilmişdi.

***İkincisi, dövlət işlərinin idarə olunması mövzusunda gürcülər arasında az, ya da çox hazırlıqlı adamlar vardı. Bunlar böyük bir siyasi partiyanın və daha sonra da Dumanın çalışmlarına aktiv qoşulmaqları sayəsində bəzi vərdişlər və təcrübələr qazanmışdılar. Amma nə biz, nə də müsavatçılar belə bir çəktəbdən keçmişdik, hazırlıqlı deyildik. Müsavat yeni bir partiya idi, Daşnaksütyun isə əsasən yeraltı fəaliyyətlər üçün hazırlıqlı idi. Gürcülər bir neçə bacarıqlı adam, toplum öndəri yetişdirmişdilər, onlarla yan-yana otura biləcək adamımız yox idi və biz onların arxasında ikinci, ya da üçüncü sıraları işğal edirdik.***

Başqa bir məqam: Köhnə rejimin dövründə Cənubi Qafqazda dövlət işləri əsasən gürcülərin əlində idi. Bu vəziyyət inqilab sonrası dövrdə də dəyişmədi, texniki çalışmaların davam etdirilməsi mövzusunda gürcülərin arasında hazrılıq adamlar daha çox idi.

Rəsmi xidmət sınağı, təbii olaraq gürcülərin dövlət idarəçiliyində birləşməsi sağlam bir zəmin yaratmaqda idi. "Komissarlıq"dan başlayaraq, dəmiryolu və poçt işlərinə qədər hər sahədə vəziyyət belə idi.

Ən vacibi isə bu məqam idi: Cənubi Qafqazda gürcü xalqı ən elmli və ən yaxşı mütəşəkkilləşən xalq idi. Bundan əlavə, gürcü xalqının fiziki varlığına yönəlmiş hər hansı bir təhdid yox idi. Bu səbəbdən gürcülər digərlərindən güclü idilər.

Gürcü xalqının coğrafi mövqeyi və arada yerləşməsi müharibədə daha az ziyan görməsi yaxın qonşuları ilə bir anlaşmazlığın olmaması sayəsində gürcülər səslərinin eşidilməsi mövzusunda ermənilər və azərbaycanlılardan daha şanslı idilər.

***Gürcülər lazım olanda Türkiyə və Azərbaycanla ermənilərə nisbətdə daha asan dil tapa bilirdilər. Gürcüstan xaricində həyatları təhdid altında olan gürcü kütləsi yox idi, amma ermənilərin Azərbaycanda, azərbaycanlıların da Ermənistanda soydaşları var idi.***

Gürcülər öz ölkələrində sakit-sakit yaşamaqda idilər. Qonşuları ilə bəlli sərhəd anlaşmazlıqları olsa da, bunların qaynağı imperialist iddilar idi və bu anlaşmazlıqlar Gürcüstanın bugününü, ya da gələcəyini təhlükəyə atmadan artırıla bilərdi.

Erməni-Türk və Erməni-Tatar əlaqələri isə fərqli idi. Bunlarınarasında yüzillərdən bəri davam edən problemlər var idi və bunların vacib münaqişələr olmqadan həll edilməsi mümkün deyildi. Qərbdə məğlub olan Türkiyə şimali-şərqdə öz gələcəyini təmin etmək və qorumaq istəyirdi. Və burada ermənilər Ərzurum ilə Bakı arasına girib türklərin yolunu kəsməkdə idi.

***Ermənilərlə Azərbaycanlılar arasında həll olunması mümkün olmayan torpaq davaları var idi. Məsələ bir-iki kənd, şəhər ələ keçirtmək deyildi, milli kütlənin bütpv bir coğrafiyada davamını təmin etmək idi. Bu istək həm ermənilərdə, həm də azərbaycanlılarda vardı. Ermənistan tatarlara aid Şərur-Naxçıvan olmadan yaşaya bilməzdi və Naxçıvanın Ermənistan üçün dəyəri zaqatala, Axalkalaki və Lorinin Gürcüstan üçün önəmindən fərqli idi.***

***Həm Ermənistanın, həm də Azərbaycanın şanssızlığı bu nöqtədə idi.***

Siyasi baxımdan yetişmiş xalqların sülhpərvər bir həll tapması bəlkə də mümkün idi. Fəqət nə bizdə, nə də azərbaycanlılarda bu yetkinlik var idi. Bu səbəbdən mövzumuzun əsası olan anlaşmazlıq qarşılıqlı düşmənlik və etibarsızlıq qaynağı olmuşdu.

Gürcülər öz xüsusi vəziyyətlərini daha da yaxşılaşdırmaq üçün erməni-türk və erməni-tatar anlaşmazlıqlarını ustalıqla istifadə etdilər, bizi çətinə saldılar və öz istəklərinə uymağa məcbur etdilər. Bizimlə ittifaq qurmaq lazım gəldiksə isə azərbaycanlıları təhdid etməyə başladılar. Bu cür davranışlar siyasi baxımdan bir şantaj olaraq gürcülərə qonuşları qarşısında üstünlük verirdi və onların hegemonluğunu təmin edirdi.

Mövzunu bir az dolaşdırdım, fəqət bəhs etdiyim dövrdə Cənubi Qafqazdakı siyasi vəziyyətin anlaşılması baxımından buna ehtiyac var.

**Partiyamız bunu başa düşməli və yadda saxlamalıdır ki, ən çətin günlərdə gürcü Sosial Demokratlar partiyasının hegemoniyası altında və onun ətəyində sürünərək hərəkət etmişdir.**

**ardı var...**

**Dilimizə uyğunlaşdıran: Eminquey**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 12 (2193) 2 fevral 2021-ci il

# GERÇƏKLİYİ TƏQDİM ETMƏK PEŞƏKARLIĞI

**Dünyada baş verən proseslərin xronoloji ardıcıllığına nəzər yetirəndə daha çox qaynar nöqtələr diqqəti çəkir. Yəni qarşıdurmalar, silahlı toqquşmalar, hətta lokal müharibələr məhz daha çox həmin nöqtələrdə baş verir. Əgər keçmiş Sovetlər Birliyinin ərazisini göz önünə gətirsək, onda görərik ki, Vilnyusda, Alma-Atada, Tiflisdə, Fərqanədə, eləcə də Dağlıq Qarabağ ərazisində, həmçinin Ermənistanda cərəyan edən hadisələr məhz həmin o qaynaq nöqtələrin real nümunələridi. Təbii ki, bu gün adlarını sadaladığımız ərazilərin bir çoxunda proses ya başa çatıb, yəni mövzu çözülərək bitib və yaxud da bəzi bölgələrdə ya istiqamətini dəyişib, ya da davam etməkdədi.**

Biz bir anlıq söylədiyimiz fikrə diqqəti artırsaq, onda görərik ki, bu gün Gürcüstanda Abxaziya, Osetiya məsələləri gündəmdədi, Moldovoda Dnestryanı məsələsi, Ukraynada Krım məsələsi, bax, həmin qaynar nöqtələrin silsiləsi olaraq bu gün də daxili gərginliyi yaşamaqdadı. Təbii ki, bizim ötən ilin sentyabr ayının 27-də Ali Baş Komandan cənab İlham Əliyevin hücum əmriylə başlayan Böyük Vətən Müharibəmiz Dağlıq Qarabağda, eləcə də Azərbaycan-Ermənistan arasındakı reallığın çox böyük hissəsini qələbə ilə həll edib yekunlaşdırdı. Elə həmin qələbə də leksikonumuzdan "Qarabağ münaqişəsi" sözünü çıxardı. Amma...

Bu gün müxtəlif informasiya agentliklərinin, sosial şəbəkələrin Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı yaydığı informasiyalar gerçək vəziyyətin, yəni reallığın kölgələnməsi baxımından diqqəti çəkir. Qələbəmizi görməməzliyə vuran düşmənlər və onların havadarları iddia edirlər ki, əslində problem çözülməyib, düşmənə özünü toparlanmaq üçün lazım olan zaman verilib.

Xüsusilə Rusiya sülhməramlıları guya Ermənistanın böyük arzularını gerçəkləşdirməkdə bir vasitədi. Təbii ki, bu mövzu siyasətçilərin və bilavasitə problemin çözümü ilə məşğul olan qurumların, şəxslərin sahəsi olduğundan mən buna o qədər də dərindən müdaxilə edə bilmirəm. Sadəcə, bir vətəndaş olaraq gördüyüm, oxuduğum və müşahidələrini apardığım bir gerçəklik var. O da artıq yüzilliyi artıq çoxdan arxada qoymuş "erməni məsələsidi".



Az-çox tarixlə maraqlanan, xüsusilə ermənilərin xəstə təfəkkürlərinin məhsulu olan "böyük Ermənistan" ideologiyası ortaya atıldığı gündən həm daşnaksütun tərəfindən, həm də onların havadarlarının maddi-mənəvi dəstəyin yardımı ilə şaxələnməyə başlayıb. Və tarix kitablarında bununla bağlı kifayət qədər bilgilər var.

Ən maraqlı bilgilərdən biri də Böyük Sovet Ensiklopediyasıdı. Burada qeyd olunur ki, ***"Erməni məsələsi şərq məsələsinin bir qoludu. Və həmin erməni məsələsi həm də Qarabağ məsələsinin yozumlarındandı. Bütövlükdə Qarabağ və erməni məsələsi eyni mahiyyəti daşıyır. Hətta ağıllı ermənilərin bəziləri etiraf ediblər ki, erməni mühacirləri arasında ən vicdanlıları əvvəlki istiqamətlərini dəyişib, keçmişdən əl çəkib, təqsirlərini boynuna alaraq həqiqəti etiraf edirlər. Və vurğulayırlar ki, sovet çevrilişindən sonra daşnaksütun tam ölümə məhkumdur".***

Amma təəssüf ki, erməni müəllifinin bu etirafı söz olaraq qaldı. Çünki sovet dövrünün özündə də ermənilər xəstə təxəyyüllərindən bir addım da olsa geri çəkilmədilər. Əksinə, Moskvanın dəstəyilə onlar xalqımıza qarşı insanlığa sığmayan vəhşiliklərə, terrorlara əl atdılar.

Bu qanlı faciələr də sonda bu gün Qərbi Ermənistan kimi tanınan ərazilərdən soydaşlarımızın deportasiyasına gətirib çıxardı. 1948-ci ilin fevral ayının 2-dən başlayaraq, 1953-cü ilə qədər 150 min nəfərdən artıq azərbaycanlı öz dədə-baba yurdundan köçürüldü. Bu köç prosesinin ən ağrılı məqamlarından biri də insanlara halal haqları olan əmlaklarını satmağa və yaxud daşımağa icazə verilməməsi idi.

Söylədiyimiz bu hal elə bir həddə gəlib çatmışdı ki, hətta məsələ ən yüksək səviyyələrdə belə müzakirə olunmuşdu. Göründüyü kimi, ermənilərin, xüsusilə Kremlin dəstəyilə açıq-aşkar törətdikləri bu cinayət sovet rejiminin xalqımıza qarşı açıq düşmənçilik siyasəti idi. Vurğuladığımız kimi, tarixi gerçəklikləri olduğu kimi, həm öz yaddaşımızda təzələmək, həm gənc nəslə çatdırmaq, həm də dünya ictimaiyyətinin bu məsələyə açıq, ayıq baxışını təmin etmək üçün ardıcıl və məqsədyönlü siyasət həyata keçirilməlidir.

Bu istiqamətdə ölkəmizdə ən böyük işlərdən birini məhz Heydər Əliyev Fondu reallaşdırır.

İstənilən mövzuya, yəni Xocalı, Qaradağlı, Ağdaban faciələrinə, 20 Yanvar qətliamına 44 günlük müharibə zamanı şahidi olduğumuz talanlar, vəhşiliklər, vandallıqlar, bir sözlə, Ağdamın, Füzulinin, Cəbrayılın, Tərtərin, Bərdənin, Gəncənin və digər ərazilərimizin məruz qaldığı soyqırımın, insanlığa yaraşmayan əməllərin nəticələrinə Heydər Əliyev Fondunun yanaşması çox təqdirəlayiqdir. Məhz bu Fond beynəlxalq miqyasda apardığı təbliğat kampaniyası vasitəsilə dünya ictimaiyyətinə reallıqları təqdim edir. Xüsusilə Fondun hazırladığı sənədli filmlər, o cümlədən "Xocalı soyqırımı" filmi və yaxud "Xocalı uşaqların gözüylə" müsabiqələri, həmçinin xüsusi açıqlamaların çapı, kitabların nəşri, özü də dünyanın əksər aparıcı ölkələrində və dillərində həmin nəşr vasitələrinin yayılması gerçəkliyin təqdimatıdır.

Gerçəkləşdirilən bu siyasətdə Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın, eləcə də Fondun vitse-prezidenti Leyla Əliyevanın xidmətləri önəmli yer tutur. Onların birbaşa göstərişi və iştiraklarıyla keçirilən təqdimatlar dünya ictimaiyyətinə həqiqətlərin çatdırılmasında böyük rol oynayır. Xüsusilə Avropanın paytaxtlarında, Amerikada, o cümlədən də qonşu Rusiyada keçirilən simpoziumlar Qarabağ həqiqətlərilə bağlı anım tədbirləri gerçəkliyin təqdimatında öz sözünü deyir. Elə bu günlərdə video-konfrans şəklində keçirilən İslam Konfransı Təşkilatına üzv dövlətlərin rəhbərlərinin 44 günlük müharibəmizlə bağlı səsləndirdikləri fikirlər və Azərbaycan prezidenti cənab İlham Əliyevin bu konfransda xalqımızın zəfəri, ordumuzun rəşadəti ilə bağlı söylədikləri göstərdi ki, artıq dünya gec də olsa gerçəkliyi görməyə başlayıbdı.

Təbii ki, bu prosesin canında, qanında, mahiyyətində həqiqətin dayanması birmənalıdı. Lakin bu həqiqəti peşəkarlıqla həm siyasətin, həm hərbin gücüylə ortaya qoymaq kimi böyük missiyanı yalnız Azərbaycan Prezidenti bacardı.

**Cənab İlham Əliyevin xalqımıza müraciətində vurğuladığı bir məqam söylədiyimiz fikri bütünlüklə şərh edir. Prezidentimiz vurğuladı ki, "On yeddi il müddətində biz hər gün hazırlaşdıq - həm siyasi müstəvidə, həm hərbi sahədə lazım olan addımları atdıq. Və mən çalışdım ki, qan tökülmədən bu problem öz həllini tapsın. Lakin bəzi qüvvələrin bu məsələdə tutduğu mövqe bizi məcbur etdi ki, gücümüzü ortaya qoyaq. Bu gün də biz Ordumuzun gücüylə torpaqlarımızı işğaldan azad etdik. Bununla da Qarabağ münaqişəsi ortadan götürüldü."**

***Əbülfət MƏDƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Kamal Abdullanın "Sarı Camış" hekayəsində obrazların psixoloji durumu



***Vəliyulla Novruz***

**Çağdaş ədəbiyyatımızda hekayə janrına olan maraq özünün mövzu genişliyi, forma rəngarəngliyi, ifadə vasitələrinin zənginliyilə diqqəti cəlb edir. Hekayənin yığcamlığı və orijinallığı, müəllifin az sözlə dərin məna ifadə etməsi başlıca amillərdən biridir. Çünki hekayə real tipin həyatından alınmış kiçik bir epizoddur. Yazıçı bu epizodu elə məharətlə seçməli və tamamlamalıdır ki, qəhrəmanın həyat yolu, keçmişi və gələcəyi aydın ifadə edilmiş olsun. Məhz bu mənada Xalq yazıçısı Kamal Abdulla öz hekayələrini qısa və aydın şəkildə yazmağı bacaran, mənalı təfərrüatları yerli - yerində işlətməklə oxucunu dərindən düşündürən və bir - birindən gözəl real səhnələr yaradan sənətkarlarımızdandır.**

30 ilə yaxın müddətdir ki, bir çox yazarlarımız Qarabağ müharibəsini öz əsərlərində mövzu pridmetinə çevirərək xalqımızın düşdüyü bu çətin və acınacaqlı vəziyyəti ürək ağrısıyla qələmə almışdılar. Bu cəhətdən Kamal Abdullanın "Sarı Camış" ( 21.11.2020) hekayəsi xüsusilə təqdirəlayiqdir.

### *Hekayənin ən koloritli,*

yadda qalan obrazlarından biri Sarı Camışdır. Əsl adı Qumral olan bu şəxsi hamı hörmət əlaməti olaraq "Sarı çağırır." Sözü ilə əməli bir olan bu adam öz alicənablığı, şəxsiyyətinin bütövlüyü ilə diqqəti cəlb edir. Bununla yanaşı onun ağır zəhmi də vardı. Bir gün Məzhəbqulu çayxanada oturub bilmədiyi sözü danışanda o, ilk öncə Sarı Camışın "qəzəbli təpkisi" lə qarşılaşır. Onun "yumruğunu var gücüylə stolun üstünə vurması" yla araya dərin bir sükut çökür. Bu zəhmli baxışların önündə duruş gətirə bilməyən Məzhəbqulu qorxudan özünü itirir, "kürəyindən tumanınacan soyuq tər axır." İlk görüşdən biz onun hərəkətlərini maraqla izləyir, Məzhəbqulu ilə toqquşmasının nə ilə bitəcəyini dərin həyəcan hissi ilə gözləyirik: " - Sən ağzını Allah yolunda qoyub kimin sözünü danışırsan, ə?! Sən heç bilirsən nə deyirsən?!"

Ədib əsərdə obrazın qəlbində baş verən tufanı, onun daxili aləmindəki təlatümü, müharibənin qanunlarına uyğun olaraq elə inandırıcı şəkildə əsaslandıra bilmişdir ki, oxucuda buna zərrə qədər də olsa şübhə yeri qalmır.

Müəllif obrazın mənəvi keyfiyyətlərini önə çəkməklə təsvir etdiyi hadisələrə dərindən nüfuz etməyi bacarır. O, yaratdığı xarakterin portretini təbii cizgilərlə çəkərək onu oxucuya belə təqdim edir: " Sarı Camışın olardı qırx, qırx bir yaşı, Bu oturub çay içdikləri və sözlərinin çəp düşdüyü çayxana onunki idi. Sarı sifəti, sarı saçları, sarı kirpikləri var idi. Nəhəng vücudunu da bura əlavə etsək, Sarı Camış ləqəbini niyə daşıdığı aydın olurdu."

### *Yazıçı dərin rəğbət bəslədiyi*

bu obrazın həyatının ən çətin, dramatik, hətta faciəvi anlarını belə bədii boyalarla canlandırıb oxucuya təqdim edə bilir. Canlı, real və həyati bir obraz olan Sarı Camış özünün alicənablığı və xeyirxahlığı ilə oxucunu məftun edir: "Ürəyi yuxa idi. Kənddə cibinə pul qoymadığı cavan, çaya qonaq eləmədiyi yaşlı qalmamışdı. Qoçaq idi... Elə haman Məzhəbqulunu polisdən dəfələrlə qurtaran da o idi..." O, kamil və bütöv bir xarakterdir, müharibədə bərkimiş və mətnləşmiş bir qəhrəmandır.

***Sarı Camış müharibənin ilk günlərindən öz müəllimi və komandiri Laçın Əjdərin çağırışına qoşularaq torpaqlarımızın azadlığı uğrunda erməni qəsbkarlarına qarşı döyüşlərdə çiyin - çiyinə vuruşaraq düşmənə qan uddurmuşdu. Döyüşlərin gərgin vaxtında Əjdər müəllim oğlu Mərdanıda öz yanına gətirmiş, döyüşçülərlə onun arasında heç bir fərq qoymamışdı. Ağır döyüşlərin birində Mərdan düşmən snayperinə tuş gəlmiş və "atasının qucağında şəhid olmuşdu." Sarı Camış bu hadisədən iki gün sonra ermənilərin döyüş mövqeyinə tərəf gedərək "iki düşmən əsgərini yaxalayıb hərəsini bir qoltuğunun altına vuraraq sürüyə - sürüyə gətirib Əjdər komandirin ayağı altına atmışdı." "Bu canlı meyidləri" tutqun baxışlarla seyr edən komandir onları zirzəmiyə saldırmış, səhəri gün qərərgaha təhvil verdirmişdi. Bunu görən Sarı Camış "təəccüb içində" donub qalır.***

Əsərdə Sarı Camış yeganə qəhrəman deyildir, onunla yanaşı diqqət çəkən obrazlardan biri də öz həqiqi vətənpərvərliyi, xarekterinin dolğunluğu və yüksək insani keyfiyyətlərilə fərqlənən "Əjdər komandirdir." Cəbhədə qazandığı uğurlarına görə "Laçın Əjdər" adını almış bu igid qəhrəman müharibənin ilk günlərindən könüllülərdən ibarət döyüşçülər toplayaraq, torpaqlarımızın azadlığı uğrunda erməni işğalçılarına qarşı mübarizəyə qoşulur. O, cəbhəyə yaxın kəndlərdə uğurlu hərbi əməliyyatlar aparmış, düşmənə ağır zərbələr endirmişdi. Oğlu Mərdanın ölümü onu dərindən sarsıtsa da, o, bu ölümü sükutla qarşılayır: "İmanlı kəndində Mərdanın dəfni zamanı Əjdər komandir qürurlu görünürdü. Nə meyid məzara endiriləndə göyə atılan avtomat səsi, nə də çalınan himni eşidirdi. Beynində ancaq Mərdanla danışırdı..."



Burada müəllif əsərin alt qatının məna dərinliyini daxili səsin qüdrətilə səciyyələndirir. Bu səs obrazın daxili dünyasının səsidir. O obrazı sonadək izləyən səsdir. Daxili səs obrazın şüurunda, davranışında, ruhunda əks - səda verən aparıcı xətdir.

Oğlu Mərdanın ölmündən sonra Əjdər komandirin narahatçılığını önə çəkən müəllif qəhrəmanın keçirdiyi ruhi çırpıntıları, anidən baş verən hadisənin dumanlı şəkildə təsəvvürü, məntiqi həll tələb edən cavabsız qalmış sualları, obrazın öz - özü ilə dialoqu bədii təhlil vasitəsinə çevirir. Şəxsi təəssürat və düşüncələrlə real həyat səhnəsi obrazda dərin psixoloji sarsıntılar yaradır və bu sarsıntılar içərisində o öz sirli dünyasına qapanır: "Niyə? Niyə mən yox, sən? Niyə mənim ağlıma gəlmədi ki, səni özümdən qabağa buraxmayım?. Bəlkə, sən bilmişdin, ya da hiss eləmişdin ki, nişana məni alırlar, ona görə məndən qabağa keçmişdin?! Mən səni beləmi qorudum?! Öz yanımda apardım gülləyə tuş edim?! Niyə sən o an o nöqtədə olmalı idin?! Niyə?!..."

Əslində bu obraz saysız - hesabsız suallarına cavab axtarmır. Çünki, bu sualların cavabı obrazın daxili aləmində yatıb qalmış cavabsız suallardır. Onun cavabını obrazın dərdində, kədərində, qəmində, əbədi iztirablarında, səksəkəli həyatında, yuxusuz gecələrində, bəxtsiz taleyində axtarmaq lazımdır.

Yazıçı qələmə aldığı bu obrazların hər birinin yadda qalan müsbət cəhətlərini önə çəkməklə onlara xas olan ümumi keyfiyyətləri bütün incəliklərinə qədər canlandıra bilmişdir. Xalqımız haqq işi uğurunda apardığı mübarizə, tutduğu yolun doğruluğu, dönməzlik, qətiyyət, prinsipiallıq, düşmənə nifrət hissi, güclü müqavimət duyğusu bu müsbət qəhrəmanları birləşdirən başlıca xüsusiyyətlərdən biridir.

### *Erməni işğalçılarına qarşı*

***döyüşlərin birində hücum zamanı komandirin qəfildən öz yerində dayanması Sarı Camışın gözündən yayınmır. Komandir yanında ötüb keçmək istəyən çavuş Həşəmətin əlindən tutub saxlayır. Çavuş əvvəlcə bir şey anlamır. Bu vaxt düşmənin onu nişan aldığını görən komandir cəld bir hərəkətlə çavuşu "öz arxasında gizləyir." Düşmən gülləsi onu ağır yaralayır. Amma çavuş bunun fərqinə varmadan döyüşə atılır. Son anda belə öz sinəsini düşmən gülləsinə qarşı sipər edən komandir canı qədər sevdiyi döyüşçüsünü ölümdən xilas etməklə öz əsgəri borcunu yerinə yetirmiş olur. Komandir yaralı halda yerə düşmüş bayrağı götürüb torpağa sancmaqla düşmən üzərində yenilməz olduğumuzu bir daha nümayiş etdirir.***

Əjdər komandirin şəhadətə yetməsi döyüşçülərin qəlbində dərin kədər hissi doğursa da, düşmənə qarşı sonsuz intiqam hissini daha da alovlandırır. Bu qəhrəman döyüşçülər ancaq bir məslək, bir amal uğrunda döyüşlərə atılaraq öz qanları ilə tarix yazırlar. Bu döyüş igid əsgərlərimizin ölüm - qalım savaşı idi: "Bütün əsgərlər artıq təkcə ayaqları ilə deyil, ruhları ilə irəli cumurdu. Sarı Camış gözlərinə yaş, boğazına qəhər dola - dola, ləhləyə - ləhləyə, son gücünü toplayıb özü də bilmədiyi hansısa sözləri bağıra - bağıra irəli qaçır və bu zaman geriyə qanrılıb səngərə tərəf baxmağa ürək eləmirdi. Beynindən çıxmırdı ki, geriyə baxsa müəllimi və komandiri Laçın Əjdərin heykələ dönmüş vücudunu əli ilə tutub söykəndiyi bayrağın yanında görəcək."

***Müəllif hekayədə yaratdığı obrazların psixologiyasını müharibə şəraitinin psixologiyası ilə vəhdətdə verir. Obrazın daxili aləmilə cəmiyyətin əhval - ruhiyyəsindəki ahəngdarlıq ümumi mənəvi - amillərdə xalqımızın vətənpərvərliyində, qəhrəmanlıq və fədakarlığında, fikir və düşüncələrinin ülviyyətində özünü daha aydın şəkildə göstərir. Çünki bu obrazlar öz arzu və düşüncələrində, hiss və həyəcanlarında da müharibə şəraitilə bağlıdırlar. Sənətkarın aydın təsviri, dəqiq və emosional təsir gücünə malik sözlər seçmək bacarığı, obrazların daxili dünyasına nüfuz etməsi, onların ictimai - psixoloji planda təsviri, döyüşçülərin şüurunda əmələ gələn dəyişikliyi, dəhşətli müharibə həyatının tipik cəhətləri əsərdə bütün çalarları ilə öz bədii əksini tapmışdır.***

Ədib hekayədə göstərir ki, düşmənə amansız divan tutan, vətənimizin bütövlüyünü qoruyan bu mərd insanların qüvvəsi yalnız onların gücündə, silahında, yekdilliyində deyildir.

Bu mübarizədə onlara güc və qüvvət verən əsas amillərdən biri də mənsub olduqları xalqın əsrlərdən - əsrlərə keçərək bu günümüzə qədər gəlib çatmış qəhrəmanlıq ənənələrindədir. Biz bunun ən bariz nümunəsini "Dədə Qorqud" və "Koroğlu" dastanlarında aydın görə bilirik. Dəli Domrulun bir çox xüsusiyyətləri ni özündə birləşdirən Sarı Camış eyni zamanda Koroğlu obrazının da bir sıra cəhətlərini özündə cəmləşdirir. Koroğlu "bir oturuma bir qazan aşı yeyib qurtardı"ğı kimi, Sarı Camışda bir oturuma " beş adamın yeməyini mərc gəlib yeyər, mərci udar, üstündən beş yumurta beş pomidora çırpılmış çığırtma istərdi..." Ədib öz qəhrəmanını epos qəhrəmanları səviyyəsinə qaldırmaqla onu oxucunun gözündə daha da ucaldır. Qeyd etmək lazımdır ki, müəllif Sarı Camışı "çılğın", "dəliqanlı" adlandırmaqla bunu heç də obrazın tipik xüsusiyyətlərinin qabardılması kimi başa düşmək lazım deyil. Surət həyatidirsə, onun özünə məxsus tarixi - milli şəraitlə müəyyənləşmiş yolu olmalıdır. Bu halda o, müəllifin iradəsinə tabe olmur: "Sarı Camışın tarıma çəkilmiş, yumruq zərbəsinə sıxışdırdığı qəzəbi, hədəqəsindən az qala çıxan gözləri, ağzından parıldaya - parıldaya çölə can atan sözlərin ağzın intonasiyası - hamısı bir - birilə qucaqlaşıb çayxanada göz qabağındaca əcayib bir vəhşət yaratdı. Məzhəbqulunun canını qorxu bürüdü." Burada surətin daxili dünyası, psixoloji durumu, gözlərinə qan sığan qəzəbli baxışları, tarıma çəkilmiş əsəbləri bu obrazın psixologiyasında müharibənin əmələ gətirdiyi qorxunc fikirlərdən və sarsıntılardan xəbər verir.

### *Eyni zamanda*

yazıçı əsərdə bir - birinə zidd xarekterləri toqquşdurmaqla onların daxili aləmini bütün təfərrüatı ilə sərgiləmiş olur. Özünü Sarı Camışın qəzəbinə tuş gəlməkdən qurtarmaq üçün qorxu içində: " - Mən nə dedim ki... Məzhəbqulu peşman - peşman pıçıldadı... Mərmərlidən bir nəfər ilə avtobusdan bir gəlirdim. O dedi. Guya Əjdər müəllim cəbhədə ikən iki erməni əsirini açıb buraxıb evlərinə..." "Sarı Camışın da yumruqları elə bu zaman stolun üstünə dəymişdi."

**"Sarı Camış" hekayəsini müharibə mövzusunda yazılmış ən mükəmməl, ən dəyərli orijinal bir əsər kimi qiymətləndirmək olar. Yazıçının böyüklüyü qələmə aldığı hadisələrin rəngarəngliyi, onu mənalandırmağı, konkret bir epizodun ifadə etdiyi ümumi cəhətləri ictimai - psixoloji planda təsvir etməyi bacarmasındadır. Obrazı daim hərəkətdə vermək, cərəyan edən hadisələri diqqətlə izləmək, real tipləri fərdiləşdirməklə obrazlar arasındakı ziddiyyətlərdən doğan konflikti zamanında həll etmək yazıçıdan böyük məharət tələb edir. Ədib obrazlı ifadələrdən yerli - yerində istifadə etməklə tipin bədii xüsusiyyətlərini qabarıq şəkildə təzahür etdirmiş, onun danışıq və hərəkətlərini özünəməxsus şəkildə dəyərləndirmişdir.**

# "Çərçivəyə sığmaq istəmirəm"

***"Əşyaların enerji daşıyıcısı olduğuna inanıram. Həm də çox inanıram. Elə şeylər var ki, ondan adama müsbət enerji gəlir. Elə şeylər var ki, onu görmək istəmirəm, çünki onun aurası mənə pis təsir edir. Çəkdiyim əsərlərə mənfi emosiyalarımı tökməmişəm". "Ədalət" qəzetinin qonağı rəssam Təranə Vaqifqızıdır.***

**-Təranə xanım, ilk olaraq özünüzü təqdim edin...**

-Rəsmi dillə desək, Qarəliyeva Təranə Vaqif qızı. Uşaqlıqda beynəlxalq müsabiqələr laureatı olmuş, sonralar Ə.Əzimdə adına Rəssamlıq Məktəbinin və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının məzunu olmuş rəssamam. 2002-ci ildən Azərbaycan Rəssamlar İttifaqı Gənclər Birliyinin üzvü, 2005-ci ildən isə Azərbaycan Rəssamlar İttifaqının üzvüyəm. Hazırda isə S. Ələsgərov adına 1 saylı uşaq İncəsənət Məktəbinin rəsm şöbəsinin müəllimiyəm. Sadə dillə desək, Təranə Vaqifqızı insanları xoşbəxt, dünyanı sülh və əmin-amanlıq içində görmək istəyən, dünyada və həyatda gözəllik axtaran, hər kəsin üzündə təbəssüm görmək istəyən insandır.






**-Əsərdə təsvir önəmlidir, yoxsa mesaj?**

-Mənə görə, hər ikisi önəmlidir. Bir rəsmdə təsvir çox gözəldir, mesaj yoxdur, bu qəbul oluna bilər.

Mesaj olsa da, olmasa da, təsvir gözəl olmalıdır. Bu qəbul olunur. Bir də görürsən ki, rəssam rənglərdən elə professional şəkildə istifadə edir ki, həmin rəsmin qarşısında dayanıb seyr edirsən. Amma mesaj var, təsvir yoxdur, bunu qəbul etmirəm, sevmirəm. Bu cür rəsmlərə insanları aldatmaq kimi baxıram. Əgər sən mesaj vermək istəyirsənsə, başqa yolla da edə bilərsən. Sənin rəssamlıq qabiliyyətin yoxdursa, dərindən öyrən və mesajı da başqa cür ver. Professional şəkildə ver. Həmin gizli mesajları yüksək şəkildə verə bilmirsənsə, nə vacibdir? Onu yazı şəklində ver. Bəzi sərgilərdə olmuşam, rəsmləri elə formada təqdim edirlər ki, şəxsən özümü təhqirolunmuş hiss edirəm. Özümü qınayıram ki, niyə axı bu sərgiyə getdim? Odur ki, hər iki amil mənə önəmlidir. Təsvir mükəmməldirsə, veriləcək mesaj varsa, inanın ki, insanlar dəqiqələrlə rəsm əsərinin qarşısında dayanacaqlar.

### *"Yaradıcılıqda sərhəd olmamalıdır"*

**-Yaradıcılıqda sərhəd yoxdur...**

-Razıyam bu fikirlə. Yaradıcılıqda sərhəd olmamalıdır, hədd olmalıdır. Hər şeyin həddi olmalıdır. İndi kimin ağlına nə gəldi, onu da edir. Kim nə istəyir, onu da edir. Hansı yollarlasa nələrisə reallaşdırmağa çalışırlar. Bu, yaradıcılıq deyil, sadəcə adını yaradıcılıq qoyublar. Bu, özünü necəsə sübut etmək, ictimaiyyətə nəsə çatdırmaqdır ki, guya iş görüblər. Ona görə deyirəm ki, hədd olmalıdır. Ağlına gələni etmək yaradıcılıq deyil. Fikrimcə, bu, bekar qalmağın əlamətləridir. Sözün əsl mənasında yaradıcılığa qalsa, sərhəd olmamalıdır. Sən tabloda improvizələr etməlisən, dar çərçivə içində olmamalısan. Əks halda, bu çox darıxdırıcı olar. Baxırsan ki, kiminsə tələbəsi onun kimi işləyir. Mən bunu sevmirəm. Mən yaradıcılıqda həddimi qoruyaraq sərhədləri aşmaq istəyirəm. Çərçivəyə sığmaq istəmirəm.

**-Rəsmi çəkərkən, yəqin ki, həyatdan təcrid olursunuz...**

-Demək olar ki, belədir. Çünki rəsm çəkərkən sevmirəm, kimsə məni narahat eləsin. Sakitlik xoşlayıram, səssizlik xoşlayıram. Bəzən olur ki, saatlarla bir işin üzərində işləyirəm, aclıq-susuzluq yadıma düşmür. Elə anlar olub ki, gecə yarısınadək rəsmdən əl çəkməmişəm. Bir də ayılmışam ki, ayaq üstə qalmaqdan ayaqlarım ağrıyır. Belə olan halda rəsmi yarımçıq qoyub səhər davam edirəm.

**-Əşyalar enerji daşıyıcısıdır. Heç olubmu ki, çəkdiyiniz əsərlərə mənfi emosiyalarınızı yükləyəsiniz?**

-Əşyaların enerji daşıyıcısı olduğuna inanıram. Həm də çox inanıram. Elə şeylər var ki, ondan adama müsbət enerji gəlir. Elə şeylər var ki, onu görmək istəmirəm, çünki onun aurası mənə pis təsir edir. Çəkdiyim əsərlərə mənfi emosiyalarımı tökməmişəm. Mənim özümə də bunu deyirlər ki, səndən pozitiv enerji gəlir. Hələ eşitməmişəm ki, kimsə ya mənim özümdən, ya əsərimdən mənfi enerji aldığını desin. Olub ki, dəfələrlə əsərimi alıblar, sonradan deyiblər ki, bu əsərə baxanda bizə oradan müsbət enerji gəlir. Tərif üçün demirəm bunları. Əsəri sevərək işləyirəm. Bir rəsmi çəkirəmsə, bütün sevgimi onun üzərinə qoyuram. İnanmıram ki, nəyəsə sevgi ötürəsən, o, özündə mənfi enerji daşısın.

Uşaq olarkən çox eşidirdim, deyirdilər ki, rəssamın tablosu övladı kimidir. O zaman bunu dərk etmirdim, hətta gülürdüm də. Amma illər keçdikcə gördüm ki, rəssamın tablosu onun üçün övladı kimidir. Nəyə görə deyirəm? Əsərlərim olub, almaq istəyən şəxs də olub, amma o insan mənə xoş təəssürat bəxş etməyib, satmamışam. Bilmişəm ki, əsəri nəyəsə xatir almaq istəyir, satmamışam. Sanmışam ki, həmin əsər o adamın evində incidiləcək.

### *"Konkret bir üslubum yoxdur"*

**-Üslubunuz nədir?**

-Hər bir insanın öz üslubu var. Hərə özünə bir üslub seçib onu davam etdirir. Desəm ki, mənim konkret bir üslubum yoxdur, gülərlər. Amma inanın ki, xarakterimdən, ruhumun təbiətindən irəli gəlir ki, konkret bir üslubum yoxdur. İncəsənətin bütün növlərini sevirəm. Rəssamlıq bir kənara, musiqini sevirəm, oxumağı sevirəm, gitarada ifa etməyi öyrənirəm, şeirlər yazıram, səsləndirirəm. Demirəm ki, bunu professional şəkildə edirəm, amma müəyyən dərəcədə etməyə çalışıram. Bir dəfə atama şeir yazırdım, onu yazanda sözlər öz-özündən tökülürdü. Vulkan necə püskürür, bax elə.

Bir tərəfdən göz yaşları, digər tərəfdən sözlər. Rəssamlıqda da konkret bir üslub seçə bilmirəm. Hər dəfə ayrı-ayrı üslublara müraciət edirəm.

**-Özünüzü tənqid edirsiniz?**

-Özümü çox tənqid edirəm. Bu tənqidin də həddən çox olması mənə mane olur.

Hansısa bir əsəri işləyirəm, yarıda dayanıram ki, burada məni qane etməyən nələrsə var. Bu da mənə mane olur. Bəzən olur ki, həmin işi yarımçıq qoyuram, bir neçə ay sonra həmin işə qayıdıb qaldığım yerdən davam edirəm. Heç vaxt özümdən qane olmuram. Bəzi insanlar var ki, çəkdikləri əsərlərini bəhbəhlə elə təqdim edirlər ki, mən onların yerində olsam, o əsərləri sərgiyə çıxarmaram. Bir əsəri bir sərgiyə çıxardımsa, ikinci dəfə onu çıxarmıram. Fikrimcə, hər zaman yenilik olmalıdır.

**-Yaradıcı insanlar az yatırlar. İlham pərisi axşam gəlir, ondan ötrümü?**

-İlham pəriləri axşam gəlir. Ən gözəl əsərləri gecələr çəkmişəm.

Baxıram ki, nə zaman əsərləri gecələr çəkmişəm, daha maraqlı olub. Amma düşünmürəm ki, rəssamların az yatmağı pərilərin axşam gəlməyi ilə əlaqədardır. Mən düşünürəm ki, vaxtın azlığına görə də az yatırıq.

### *"Keyfiyyətli rəssamlar az da olsa, tanınırlar"*

**-Niyə rəssamlar insanlar tərəfindən az tanınır?**

-Bu həm rəssamdan, həm də onun təbliğatından irəli gələn məsələdir. Hər şey elədir. Nə qədər ki, göz özündə olur, daha çox da tanınır. İndi daha çox gündəmdə nədir? Müğənnilər, sənətçilər...

Hər bir müğənniyə aid etmirəm bu fikirləri, bəzilərinə ki, baxırsan, bunlar tanınmağa, efirə çıxarılmağa layiq deyil. Nə ilə çıxıb, niyə çıxıb, bu bəlli deyil. Hər sahədə belə hal var, keyfiyyətlisi də var, keyfiyyətsizi də. Keyfiyyətli rəssamlar az da olsa, tanınırlar. Keyfiyyətsizləri isə tanınmasaq, yaxşıdır. Rəssamların tanınıb-tanınmaması təbliğatdan asılıdır. Bu gün biz rəssamları kimsə tanımırsa, günah bizdədir. Biz özümüz üzərimizdə işləyib, sərgilərə çıxıb tanınmalıyıq.

**-Rəssamlığı seçmək istəyən, lakin mənəviyyatla maddiyyat arasında qalan gənclərə nə tövsiyyə etmək istəyirdiniz?**

-Həqiqətən, rəssamlıq çətin sənətdir. Rəssam olmaq istəyirsənsə, sənə kənardan dəstək olmalıdır. Ki, nələrəsə nail olasan. Rəsm materialları çox bahadır.

Gənc sənət arxasınca getsə, dolana bilməyəcək. Amma bunu gözə alanlar var, kasıblıqla yaşayan rəssamlar var. Gənc maddiyyat dalınca qaçsa, sənət kənarda qalacaq. Əgər kimsə maddiyyat arxasınca deyil, sənət arxasınca qaçırsa və hər şeyə rəğmən, kasıblıq içində olsa belə, sənəti seçirsə, gec və ya tez o, madddiyyat da qazanacaq.

**-Çox sağ olun ki, dəvətimi qəbul edib müsahibə verdiniz.**

-Siz sağ olun.

# Aygün Kazımova kişiləri qorxaq adlandırdı

**"Xəyanəti bağışlamamışam. İlk dəfə mənə xəyanət ediblər və bir dəfə ediblər, onu da bağışlamamışam. Bunu hamı da bilir. Qürur, xəyanət, sədaqətsizlik başqa-başqa anlayışlardır. O, mənə xəyanət etdi və mən onu bağışlamadım. Ən önəmli olan şey inamdır".**

Adalet.az saytı xəbər verir ki, bu sözləri Xalq artisti Aygün Kazımova "ATV Maqazin Onlarla" verilişində qonaq olarkən səsləndirib:

"Kimsə sənə sədaqətli deyilsə, xəyanət edirsə, vay o münasibətə. İki nəfərdən ibarət olan münasibətdə xəyanət baş verirsə, o bitir. Məndə də elə oldu və mən bağışlamadım. Çox da xoşbəxtəm ki, bağışlamadım".

Xəyanətdən danışan Xalq artisti rəsmi şəkildə boşanıb-boşanmaması ilə bağlı sualı da cavablandırıb: "Hansısa sənədimdə "evli" yazılıb. Neçə il bundan qabaq olardı, mən idim, Faiq Ağayev idi, Zülfiyyə Xanbabayeva idi, Samir Bağırov idi ki, bir verilişdə yer almışdıq. Həmin proqramda evlilikdən söhbət düşdü, orada da söyləmişdim ki, indiyədək ayrılmamışam". Bundan sonra onu qısqananların olduğunu da deyən Kazımova səsləndirdiyi fikirlər ilə gündəmi alt-üst edib: "Məni daha çox xanımlar sevir. Çox xanımlar var ki, mənə sevgi mesajları yazıb sevgilərini etiraf edirlər. Məsələn, yazırlar ki, Aygün xanım, siz bizim həyatda stimulumuzsunuz. İnanın ki, sizi TV və ya sosial şəbəkələrdə görəndə, hansısa mahnınızı eşidəndə yaşamaq istəyirik. Durub geyinib-keçinib evdən çıxmaq istəyirik.



Kişilər də məni sevirlər, söhbəti yox. Amma onlar qorxurlar, etiraf edə bilmirlər. Nə zamana gəldik ki, kişilər nə qorxaq oldu?! Necə olur ki, sən bir qadını sevəsən və sən o sevgini içində saxlayasan, dilə gətirib deyə bilməyəsən. Mən güclü qadınam. Hansısa bir kişinin mənimlə dostluq etməsi üçün o, məndən güclü olmalıdır. Mütləq güclü olmalıdır. Mən səhnədə başqa, həyatda başqa Aygünəm".

Xanım müğənni illər öncə intihar etməsi ilə bağlı açıqlama da verib:

**"Möcüzəli bir şəkildə qurtuldum. Bu barədə danışmaq istəmirəm, amma intihar olmuşdu. Həmişə dostlarıma deyirəm ki, çalışın, yıxılmayın. Bunu niyə deyirəm? Mənim həyatımda bu hal olub. Ayağa qalxandan sonra çevrilib görürsən ki, səni itələyən kimdir. Bax o mənzərə çox ağırdır".**

**Səhifəni hazırladı: Rövşən Tahir**

# *Özcan Deniz yeni eşq macərası yaşayır*





**Keçmiş həyat yoldaşı Feyza Aktana şiddət göstərdiyi üçün mühakimə edilən Özcan Deniz özündən 23 yaş kiçik modelyer Samar Dadgar ilə eşq macərası yaşayır.**

Bu yaxınlarda ekranlara gələn "Seni çok özledim" serialında baş rol oynayan Özcan Deniz özəl həyatı ilə də gündəm olmaqdadır.

Oğlu Kuzeyin anası Aktan ilə problemlər yaşayan Özcan Deniz özəl həyatında yeni səhifə açdı.

### *Aralarında yaş fərqi var*

Türk mediasında yer alan xəbərlərə görə, 49 yaşlı Özcan Deniz 26 yaşlı İranlı modelyer Samar Dadgar ilə sevgilidir. Deniz ilə Dadgarın münasibətlərinin ötən ilin yaz aylarında başladığı iddia edilir.

### *Keçmiş həyat yoldaşı onu şikayət etdi*

2018-ci ildə həyat yoldaşı Feyza Aktandan boşanan Özcan Deniz illərdir ki, oğlu üçün məhkəmələrdədir. Övladının qəyyumluğuna görə məhkəmələrdə qalan Özcan Deniz bu dəfə qadına şiddət səbəbindən məhkəməlik oldu. Belə ki, keçmiş həyat yoldaşı Feyza evli olduğu zaman Özcan Deniz tərəfindən şiddət və təhdidlərə məruz qaldığını söylədi və onu şikayət etdi.

**Qeyd edək ki, bir neçə gün bundan öncə Özcan Denizin bacısı Sibel Simerci gəlinləri Feyza Aktan barədə şok iddialar səsləndirmiş və bu fikirləri söyləmişdi: "İçki, qəhvə siqaretdən imtina edə bilmədin. Bu səbəbdən yuxuluyub qaldın. Səhlənkarlığına görə ev yandı. Qardaşım oğlu həmin gün təhlükə ilə üz-üzə qaldı". Simercinin bu sözlərinin ardınca Feyza hüquqi işlər başladığını bildirib qarşı tərəfi məhkəməyə verdiyini söyləmişdi.**

# Cem Yılmaz və Serenay Sarıkaya barışdılarmı?



**Uzun müddətdir, birlikdə olduğu Serenay Sarıkaya ilə münasibətini bitirən Cem Yılmazın sosial mediadakı bir paylaşımınının Serenay tərəfindən bəyənilməsi Türkiyə mediasında gündəm oldu. Aralarında yenidən nələrinsə yaşadığına dair yazılar mətbuatda yer aldı, manşetlər Cem Yılmaz və Serenay Sarıkaya ilə bəzəndi. Onlar barışıblarmı?**

Ötən gün müalicədən qayıdarkən Türkiyəli müxbirlər Cem Yılmazın qarşısını kəsərək ondan Serenay ilə barışıb-barışmadıqlarını soruşublar. Jurnalistlərin suallarına cavab olaraq Yılmaz "Xeyr, barışmadıq" cavabını verib.

Qeyd edək ki, məşhur komediya aktyoru Cem Yılmaz ilə Serenay Sarıkaya 2019-cu ilin noyabr ayında sevgili olduqlarını açıqlamışdılar. Karantin günlərini birlikdə keçirən sevgililər 2020-ci ilin oktyabr ayında ayrılıblar.

Cütlük o gündən bu tərəfə heç bir yerdə bir araya gəlməmiş və bu barədə heç bir şey də danışmamışdılar. Ancaq Serenayın Cem Yılmazın paylaşımını bəyənməsi ilə gündəm dəyişmiş, Sarıkayanın bu hərəkəti insanların beynində "Barışdılarmı?" sualını formalaşdırmışdı.

**Onu da əlavə edək ki, Cem Yılmaz "instagram"da Serenayı izləmədən çıxarsa da, Serenay onu izləməyə hələ də davam edir.**

# "Atalıq borclarını yerinə yetirsinlər" - Sevda keçmiş ərlərindən danışdı

**"Həyat yoldaşlarımdan aliment tələb etmirəm. Niyə tələb etmirəm, onu da deyim. Aliment tələb etməməyimin səbəbi maddiyyat deyil, mənəviyyətə daha çox önəm verməyimlə əlaqədardır. Mənim üçün uşağa lazım olan əsas atalıqdır".**

Adalet.az saytı xəbər verir ki, bu sözləri müğənni Sevda Sanalıyeva keşmiş həyat yoldaşları barədə "Günə bir şou" proqramında qonaq olarkən söyləyib:

"Uşaqlarımın ataları ilə münasibətləri əladır. Ömrü boyu da görüşəcəklər. Görüşürlər də, danışırlar da, hətta zəngləşib, telefonla mesajlaşırlar da. Bunu etmək məcburiyyətindəyəm.

Aliment verməsən, bunu edərəm, onu edərəm, məndə belə bir şey yoxdur. Aliment kəsilib, əvvəl-əvvəl də verilirdi, amma indi tələb eləmirəm. Mənim üçün əsas uşaqlarımın üzünün gülməyidir. Övladlarımın heç biri üçün aliment almıram, tələb də etməyəcəm. Mənəvi atalıq borclarını yerinə yetirsinlər, bəsdir".

Qeyd edək ki, Sevda həyat yoldaşından ayrıldığını" instagram" hesabında paylaşımı ilə açıqlamışdı:



"Bu gün ayrılığımı təsdiqləyirəm. Bu ailənin dağılmaması üçün çox çırpındım, amma tək gücüm bu qədər yetdi. Allah bundan sonra balalarıma görə güc versin, onları böyüdüm. Çünki bu yaşda mən yiyəsizliyə dözə bilmirəm. Onlar nə edər?"

**Onu da əlavə edək ki, Sevda iki dəfə ailə həyatı qurmuş, hər iki evliliyi də uğursuz alınmışdır. Müğəninin birinci evlilikdən bir oğul, ikinci nigahından isə qız övladı var.**

**Quba rayonu Aqrar İslahat Komissiyasının 1998-ci il 22 dekabr tarixli 17 nömrəli qərarı ilə Quba rayonu Küpçalqışlaq kənd sakini Qurbanov Tərlan Fərman oğlunun adına verilmiş Azərbaycan Respublikası Torpaq Mülkiyyət Hüququna dair JN-0087 Kod 30313058 Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.**

***

**Astara rayonu Ərçivan kənd sakini Quliyeva Cəmilə Ağadədə qızına Astara rayon Aqrar İslaht Komissiyasının 24 noyabr 2003-cü il tarixli 06 saylı qərarı ilə verilmiş Torpaq sahəsinin plan və ölçüsü (AN№ 494028) itdiyi üçün etibarsız sayılsın.**

***

**Astara rayonu Ərçivan kənd sakini Əliyeva Reyhan (Reyxan) Həsən qızına Astara rayon Aqrar İslaht Komissiyasının 24 noyabr 2003-cü il tarixli 06 saylı qərarı ilə verilmiş Torpaq sahəsinin lan və ölçüsü (AN№ 494660) itdiyi üçün etibarsız sayılsın.**

***

**Astara rayonu Ərçivan kənd sakini Nuriyev Barat İsrafil oğlunu Astara İslahat Komissiyasının 24 noyabr 2003-cu il tarixli 06 saylı qərarı ilə verilmiş Torpaq sahəsinin plan və ölçüsü (AN 501482) itdiyi üçün etibarsız sayılsın.**


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 56
Çapa imzalanmışdır:
01.02.2021